# ÖMÜR YOLUM

Günel Vaqifqızı



İKSAD
Publishing House

*Günel Vaqifqızı*

# *ÖMÜR YOLUM*

İKSAD
Publishing House

Copyright © 2019 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed, or transmitted in any form or by any means, including photocopying, recording, or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution Of Economic Development And Social Researches Publications®

(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
kongreiksad@gmail.com
www.iksad.net
www.iksad.org.tr
www.iksadkongre.org

It is responsibility of the author to abide by the publishing ethics rules.

Iksad Publications – 2019©
**ISBN: 978-605-7695-69-7**
Cover Design: İbrahim Kaya
September / 2019
Ankara / Turkey
Size = 14,8 x 21 cm

**Redaktor: Raquf BUDAQLI**

*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*AYB Beyləqan bölməsinin sədr müavini*
*Prezident təqaütçüsü.*

**Korrektor: Əlvan CƏFƏROV**

**Tərtibat və dizayn: Əlvan CƏFƏROV**

**Günel Vaqifqızı (Əliyeva).** *Ömür yolum.*
Ankara: 2019, 158 səh.

Kitabda **Günel Vaqifqızı**nın müxtəlif səpkidə yazdığı şeirləri toplanmışdır.

**Şair Vaqif Cəfərlinin xatirəsinə həsr edilmiş şeir müsabiqəsinin qalibi. Diplom.**



# ÖN SÖZ

Beyləqan torpağında böyüyüb boya-başa çatmış gənc müəllimə Günel Vaqifqızının Vətəninə, elinə, millətinə və həyata qarşı dərin düşüncələri, həssas duyğuları onu poeziyaya cəlb etmiş və şeir yazmağa başlmışdır. Şeirlərinin əlyazması ilə tanış oldum. Şeirlərində qəlbindən keçirdiyi hisslərini, həyatın ağrılı-acılı günlərini, bununla yanaşı yaşadığı sevincli günlərin yaratdığı emosional duyğularını yüksək məharətlə əks etdirmişdir. O, yazdığı şeirləri yaşayaraq, obrazlı canlandıraraq özünəməxsus şəkildə ifadə etməyi bacarmışdır. Günel Vaqifqızının həyatda müəyyən çətinliklər görmüş bir obrazı "Ay qardaş" şeirində yaşaya-yaşaya səmimi sözlərlə, içindən gəldiyi kimi ifadə etməsi onun poetik düşüncələrinin zənginliyinin nümunəsidir.

Əməlimdə düz olmuşam.
Neçə dildə söz olmuşam.
Nə yandırıb köz olmuşam.
Qoy başıma kül, ay qardaş!

Bu şeirdə həyatda gördüyü haqsızlıqlardan, insanların laqeyd, soyuq münasibətlərindən söz açaraq zamanla susduğunu, yorulduğunu, lakin içindəki etiraz dolu fikirlərini sətirlərə köçürməklə, bir növ, bütün yaşanan olaylara ya üsyanını, ya da göz yumub susduğunu ifadə edir.

Mən küsmüşəm barışmıram.
Heç bir işə qarışmaram.
Dilim batıb danışmaram.
İstəmirəm dil, ay qardaş.

Son zamanlar poeziyamızda yazıb, yaradan şairlərin əksəriyyəti şeirlərində həyatı, dünyanı qınayaraq bütün günahları dünyanın üstünə atırlar. Lakin Günel Vaqifqızı baş verən hadisələrdə dünyanın günahı olmadığını, onu gözəlləşdirənin də, məhv edənin də insanların olduğunu "Yazıq dünya, qınamıram mən səni" adlı şeirində təhlil edərək dünyanı qınamadığını, ən çox insanları qınaq obyektinə çevirdiyini əks etdirir.

Haqq yolunda yaxşılığı etməyən.
Düzü deyib, doğru yolu getməyən.
İnsanlardı zülümləri bitməyən!
Yazıq dünya qınamıram mən səni!

Bundan başqa müəllif həyatında yaşadığı hadisələri, hiss və duyğularını qələmə alarkən özü ilə öyünmədiyini, sadə bir insan olduğunu, şərəfli, ləyaqətli bir ömür yaşamağa üstünlük verdiyini vurğulayır. Elə məhz buna görə də müəllif çapa hazırlanan ilk kitabını "Ömür yolum" adlandırıb. Bununla yanaşı, Günel xanım şan-şöhrət hərisi olmadığını, quru ad-san sahibi olaraq qürrələnməyin lazım olmadığını bir şeirində aşağıdakı misralarla ifadə etmişdir.

Keçilməz bir səddim vardır.
Aşılmayan həddim vardır.
Dünya boyda dərdim vardır.
Adım-sanım nəyə lazım!

Günel Vaqifqızının vətənpərvərlik haqqında da çox duyğulu, ruha yaxın, qürurlu şeirləri var. Onları oxuduqca Günelin Vətənə, torpağa, doğma yurd-yuvasına qarşı böyük sevgisi hiss olunur. Onun işğal olunmuş rayonlarımızın uzun illərdir düşmən tapdağı altında qalması ilə razılaşmaması, qaçqın həyatı yaşayan soydaşlarının başına gətirilən hadisələrlə barışmaması, şəhidlərimizlə qürur duysa da, daha vətənin şəhid verməsini istəmədiyi, müharibələrə nifrəti "İstəmirəm" adlı şeirində öz ifadəsini tapmışdır:

Qoy ucalsın haqqın səsi.
Nahaq qanlar istəmirəm!
Qovaq ordan satqın kəsi.
Şəhid canlar istəmirəm!

Gənc şairəmizə gələcək işlərində müvəffəqiyyətlər arzu edir, yaradıcılıq uğurları diləyirik.

**Həcər Hüseynova-Umani**
**AYB-nin üzvü, Yazıçı-publisist,**
**Prezident təqaütçüsü, Qızıl qələm, XXI əsr ziyalısı,**
**Azərbaycan bayrağı və s. mükafatlar laureatı,**
**filologiya elmləri doktoru, professor**

## ÖMÜR YOLUM

Ömür yolum kələ-kötür,
Gözəl işi görüb, götür,
Yeni nəslə öyüd ötür,
Çalış bunu özün elə!

Başın üstə tufan olsa,
Toz-torpaq da gözə dolsa,
Ömür yolun çətin yolsa,
Döz, sinə gər əsən yelə!

Harda olsan, hara getsən,
Nə iş görsən, nələr etsən,
Uzaq gedib gözdən itsən,
Yenə qayıt doğma elə!

Ömrün bahar gülü solar
Yay da gedər payız olar
Cavan insan yaşa dolar.
Ağlar düşər qara telə.

Günel hərdən fikrə dalıb,
Ötən günü yada salıb,
Çətin günlər gerdə qalıb,
Olan, olub desə belə.

## ONA DEYİN

Ona deyin mənim dünyam,
Mənə aid, kimsə bilməz.
Həsrət adlı şirin röyam,
Yuxusuna girsə bilməz.

Ona deyin mən buludam,
Qaram da var, ağım da var.
Çətin onu mən unudam.
Qəlbim çəkən dağım da var.

Ona deyin yaxşılığı,
Heç vaxt yerə vurmamışam.
Pislik edib  qarşılığı,
Mən üzünə durmamışam.

Ona deyin əlim-qolum,
Heç açılmır işə yatmır.
Getmək üçün uzaq yolum,
Gedib sonda ona çatmır.

Ona deyin qurban olum,
Mümkün deyil gəlmək olmur.
Zəhər saçır sağım, solum,
Kim necədi bilmək olmur.

Ona deyin dərdim çoxdu,
Bəxti yazan  belə yazıb.
Dost-tanış da artıq yoxdu,
Çoxu gedib yolun azıb.

Ona deyin yuxum qaçıb,
Yatmaq nədir bilmirəm mən.
Yatıb qalsam gözü açıb,
Baxmaq nədir bilmirəm mən.

Ona deyin uzaq düşüb
Bircə dəfə bura gəlmir.
Günel ondan yaman küsüb.
Nələr olub özü bilmir.

## ŞƏHİDİN VAR, AZƏRBAYCAN!

Keçilməyən sədlərin var,
Çəkilməyən dərdlərin var,
Səngərində mərdlərin var,
Şəhidin var, AZƏRBAYCAN!!!

And içəndə başın əyən
Vətən üçün ölləm deyən,
Bayrağından kəfən geyən,
Şəhidin var, AZƏRBAYCAN!!!

Sinəsini sipər edən,
Canlarını hədər edən,
Qəlbi vətən dərdli gedən,
Şəhidin var, AZƏRBAYCAN!!!

Anasının gözü yaşlı,
Sinəsinin üstü daşlı,
Torpaq altda cavan, yaşlı,
Şəhidin var, AZƏRBAYCAN!!!

Qopan yara illərlədi,
Qəbri solmuş güllərlədi,
Sayı yüz yox, minlərlədi,
Şəhidin var, AZƏRBAYCAN!!!

## GÖRDÜM

Dəyişibdi dünya yaman,
Nahaq, haqqa vermir aman,
Gözəl dövran, getdi zaman,
Ötüb keçən illər gördüm!

Yersiz küsüb tez barışan,
Var hər işə çox qarışan,
Gördüyünə hey danışan,
Heç susmayan dillər gördüm!

Bir insana olmaz nazı,
Ömrü gedib qalıb azı,
İşdə-gücdə qışı, yazı,
Qabar olmuş əllər gördüm!

Xoş üz görüb saflıq edən,
Vursan başa, deməz nədən?
Dərə-təpə əyri gedən,
Aşıb, daşan sellər gördüm!

Elə dərd var, dözməz daş da,
Fikir çəksən qalmaz baş da,
Dərd çəkməyən qoca yaşda,
Ağarmayan tellər gördüm!

Hər kəlmədə özün anan,
Bərbad işin gözəl sanan.
Pis əməlin örtüb danan,
Əsib-coşan yellər gördüm!

## SEVMƏRƏM Kİ!

Axı sizə mən yalandan.
Hə, sevirəm demərəm ki!
Sevgi yoxdu mən olandan.
Var, bilsəm də sevmərəm ki!

Sevgi sözü məncə boşdu,
Sevmək nədi, kimə xoşdu?
Sevən kəslər elə coşdu,
İnansam da sevmərəm ki!

Sevgi özü həsrətdimi?.
Yarım qalmış möhnətdimi?
Eşqdən yanmaq dəhşətdimi?.
Alışsam da sevmərəm ki!

Bağlanıbdı mənim gözüm,
Tükənibdi sevgi sözüm,
Allah versin mənə dözüm,
Mən ölsəm də sevmərəm ki!

Üz çevirib sevgim məndən
Sevən gördüm getdim gendən
İncimişəm həyat səndən!
Barışsamda sevmərəmki!

## AY **QARDAŞ!**

Fikir məni əldən salıb,
Dərdim məni, məndən alıb,
Ürəyimdə nisgil qalıb,
Çatmır sənə əl, ay qardaş!

Solmuş bağın gülüyəm mən,
Sönmüş ocaq külüyəm mən,
Ölü kimi diriyəm mən,
Gəl danışım bil, ay qardaş!

Əməlimdə düz olmuşam,
Neçə dildə söz olmuşam,
Nə yandırıb köz olmuşam?
Qoy başıma kül, ay qardaş!

Kimə deyim?, düzdü sözüm.
Günahkaram mənim özüm.
Ağlar qalıb görən gözüm,
Göz yaşımı si,l ay qardaş!

Ömür keçib bilməmişəm,
Hələ sağam ölməmişəm,
Yaşım boyu gülməmişəm,
Deyən yoxdu gül, ay qardaş!

Mən küsmüşəm barışmaram,
Heç bir işə  qarışmıram,
Dilim batıb danışmaram,
İstəmirəm dil, ay qardaş!

Gəl, itirmə etibarı,
Əcəl yaxın, ömür yarı,
Sən Güneli yoxla barı!
Zaman keçir, gəl ay qardaş!

## NİYƏ İNSAF YOXMUŞ, ALLAH?

Bizə qismət bəxt yazanda,
Niyə insaf yoxmuş, Allah?
Önə çıxan çox adamda,
Niyə vicdan yoxmuş, Allah?

Bir insanın iki üzü,
Söz tapmıram deyəm düzü.
Danışanın yalan sözü,
Qəlbə batan oxmuş, Allah!

Yalan deyim, niyə danım?
Xəstə düşüb cavan canım,
Hansı hala baxım yanım,
Nədən gözüm toxmuş, Allah?

Tanrı bizi yada salsın,
İnsan çəkən dərdi alsın!
Kədər getsin, xoş gün qalsın,
Əzab yaman çoxmuş, Allah!

Qara bəxtdə alın yazım,
Həyat sənə yoxdu nazım!
Öz qəbrimi özüm qazım,
Burda yerim yoxmuş, Allah!

## SƏNSƏN

Layla çalsam dünyam sənsən,
Yuxu yatsam röyam sənsən,
Söz dolusu dəryam sənsən,
Gəl ilhama gətir məni!

Şirin sözlü neyim sənsən,
Hər çiçəkdə şehim sənsən,
Külək əssə mehim sənsən,
Uzaqlara götür məni!

Nəğmələrdə sazım sənsən,
Baharımda yazım sənsən,
Xəyalımda arzum sənsən,
İstəyimə yetir məni!

Zirvələrdə dağım sənsən,
Həyatimdə bağım sənsən,
Bostanımda tağım sənsən,
Torpağında bitir məni!

Tarlalarda  darım sənsən,
Bağçalarda  barım sənsən,
Dağ başında qarım sənsən,
Apar dağa itir məni!

## BİZƏ ƏZİZ DOĞMADIR

Azərbaycan vətənim,
Xarı bülbül bitənim,
Canın fəda edənim,
Bizə əziz doğmadır.

Sərin sulu bulaqlar,
Saf ətirli yaylaqlar,
Bura gələn qonaqlar,
Bizə əziz doğmadır!

Bağlarının bağbanı,
Karvanının sarvanı ,
Yaylağının çobanı,
Bizə əziz doğmadır!

Zirvəsi qar dağları,
Bol nemətli bağları,
Gözəl keçən çağları,
Bizə əziz doğmadır!

Dağlarının başı da,
Xırda çınqıl daşı da,
Yanan ocaq başı da,
Bizə əziz doğmadır!

El-obası, yaylağı,
Cənnət məkan oylağı,
Hər bir qarış torpağı,
Bizə əziz doğmadır!

İşğal olan Qarabağ,
Gözü dolan Qarabağ,
Əsir qalan Qarabağ,
Bizə əziz doğmadır!

Qarabağsız dərdimiz,
Parçalanır qəlbimiz,
Etdiyimiz əhdimiz,
Bizə əziz doğmadır!

Yaddan çıxmaz olanlar,
Qarabağsız qalanlar,
Bir gün zəfər çalanlar,
Bizə əziz doğmadır!

## HƏZİN-HƏZİN ƏSƏN KÜLƏK

Həzin-həzin əsən külək!
Məni-məndən apar artıq.
Bir az əsib kəsən külək!
Qəmi məndən qopar artıq.

Yanmış oddan qalan küləm,
Əs külümü sovur apar.
Alaq sıxmış yalqız güləm.
Sən gülümü dərib qopar!

Götür apar nəfəs alım!
Dərd-sər nədir bilməyim mən.
Tək özümlə tənha qalım!
Göz yaşımı silməyim mən!

Qəm-qüssəsiz ömrüm olsun,
Öz dünyamda ucalım mən!
Xoşbəxt keçən günüm olsun,
Şad yaşayım qocalım mən!

Əsib hərdən yatma külək!
Görmürsənmi gözüm dolub?
Məni belə atma külək!
Sən gedirsən üzüm solub!

Dara düşsəm birdən yenə
Harayıma çatarsanmı?
Kömək umsam desəm sənə,
Alıb dərdi uçarsanmı?

Həzin-həzin əsən külək!
Sərin mehlə oxşa məni.
Bir az əsib kəsən külək!
Gözləyəcəm  yenə səni!

## AY ZALIMIN BALASI

Səni adam bilmişəm,
Nə etmisən, keçmişəm,
Nahaq səni seçmişəm.
Ay zalımın balası!

Qaynayırsan, daşırsan.
Həddini də aşırsan,
Dinmədikcə çaşırsan,
Ay zalımın balası!

Danışmağa sözün yox,
Səhvdən başqa düzün yox,
Barışmağa üzün yox,
Ay zalımın  balası!

Yalanından bezmişəm,
Əlimi də üzmüşəm,
Artıq səndən küsmüşəm.
Ay zalımın balası!

Səhvlərini danma sən,
Daha məni anma sən,
Bağışlaram sanma sən,
Ay zalımın balası!

Birdə gözə görünmə,
Cin donuna bürünmə,
Arsız canla öyünmə,
Ay zalımın balası!

## GÖSTƏR

Danış bir sözün düzünü,
Pis yoldan qoru özünü.
Həyatda doğru sözünü,
Deməyə göstər cəsarət.

Gördüyün işə deyinmə,
Yaxşıyam deyib sevinmə.
Hünərsiz canla öyünmə.
Hər işdə göstər şücayət.

Çox da arxayın olma sən,
Quru xəyala dalma sən,
Heç kəsdən geri qalma sən,
Qoçaq ol, göstər fərasət.

Unutma keçən zamanı.
Sil gözü tutan dumanı.
Gör yaxşı qədər yamanı.
Bax şərə, göstər mərhəmət.

Doğru söz getsə hədərə.
Yalanlar keçsə kədərə.
Çatsa yalan nə qədərə
Düz olsa göstər həqiqət.

## AY GÖZƏLİM!

Bu dünyanın özü sənsən.
Sevdiyinin sözü sənsən.
Hara baxsa gözü sənsən.
Mələksən sən, ay gözəlim!.

Sən qəlbimdə yurd salmısan.
Eşq baxçamda yer almısan.
Xəyalımda şən qalmısan.
Ürəksən sən, ay gözəlim!.

Gözəlliyin canlar alar.
Aşiqini dərdə salar.
Məcnun kimi çöldə qalar.
Diləksən sən, ay gözəlim!.

Bir gülüşün mənə yetər.
Qalsa sənsiz bu can bitər.
Yoxdu səndən xəbər-ətər.
Gərəksən sən, ay gözəlim!

Mənim üçün ayrı cansan.
Eşq oduna mən tək yansan.
Sən özünü aşiq sansan.
Çiçəksən sən, ay gözəlim!.

## NƏYİ PİSDİ?

Fikir yoran başım yatmır.
Qalxır göyə əlim çatmır.
Haqlı kəsi dilim satmır.
Düz deməyin nəyi pisdi?

Gözəl nəğmə dil oxusa
Ətraf aləm gül qoxusa.
Əllər hörsə, mil toxusa,
Bu əməyin nəyi pisdi?

Hər insanda düz əl olsa.
İş-gücü də özəl olsa.
Hər tərəfdə gözəl olsa.
Gözləməyin nəyi pisdi?

Ömür payın varsa hələ,
Hər insana hörmət elə.
Öz adını ucalt belə,
Dikəlməyin nəyi pisdi?

Ötüb keçən neçə illər.
Ağarıbsa qara tellər
Başım üstə əsir yellə.
Elimizə gözəl günlər,
Diləməyin nəyi pisdi?

## KÜSMƏ!

De küsməyin nə mənbəyi?
Bəhanən çox, de sən nəyi?
Pis cəhətə versək rəyi.
Sən doğru bil, bizdən küsmə!

Ətin şişə taxan kimi,
Bir söz başa qaxan kimi,
Köz yandırıb yaxan kimi,
Od söndürüb, közdən küsmə!

Qeybət edib yalan demə,
İnsaf elə haram yemə,
Səhvə görə batma qəmə,
Bir tək doğru sözdən küsmə!

Qulaq asıb belə dərsə,
Doğru sözü bilmə tərsə.
Sən bir hakim ol ki hirsə,
Şərə görə düzdən küsmə!

## NƏYƏ LAZIM?

Hərdən halım olur yaman
Həyat vermir mənə aman.
Bir çarə də olmur zaman.
Dərdli canım nəyə lazım?!

Pis günlərin var yarası
Bu ürəkdə çox qarası
Heç birinin yox çarası.
Bəlkə danım nəyə lazım?!

Ömür keçdi hədər oldu,
Həyat gəldi gedər oldu.
Gör bir bəxtim nətər oldu.
Olsam xanım nəyə lazım?!

Keçilməz bir səddim vardır.
Aşılmayan həddim vardır
Dünya boyda dərdim vardır.
Adım-sanım nəyə lazım?!

İndi varın yox olduğu,
Olsa yoxun çox olduğu.
Yoxdu acın tox olduğu.
Dörd bir yanım nəyə lazım?.

## ÖLMƏZSƏN Kİ!

Həyat bizə dayan deyir.
Dünya yalan, oyan deyir.
Ömrü-günü sayan deyir.
Hörmət etsən ölməzsən ki?

Pis işlərə sən adətkar,
Günah işdə bir səbəbkar.
Gəl heç olma sən günahkar.
Dada yetsən ölməzsən ki?

Lağ eləyib sən heç gülmə.
Könül qırıb, qəlbi dəlmə.
Səhv etsən də düzdü bilmə.
Düz yol getsən ölməzsənki?

## İNANMAYIN HƏR SEVGİYƏ

Çox bir-birin sevənlər var.
Canım, gözüm deyənlər var.
Sevib özün öyənlər var.
İnanmayın hər sevgiyə.

Ömür boyu güya sevər.
Eşq yolunda candan keçər.
Qız gəlməzsə qolun kəsər.
Aldanmayın o sözlərə.

Alıb qızı evə gedər.
Ömür-günün edər hədər.
Sevən qıza verər kədər.
Gülməz üzü yazıq qızın.

Düşmənlər çox qız neyləsin?
Kimə dərdin o söyləsin.
Nə etsin ki, ər döyməsin.
Necə dözsün pis günlərə!

Qız odlanıb içdən yanar.
Hər an özün tənha sanar.
Getmək istər, ondan danar.
Bir gün qaçar daha dözməz.

Körpə uşaq var qucaqda,
Gedib qalar künc bucaqda.
Bədbəxt olub o ocaqda.
Son qoyaraq bu əzaba.!

Fikir onu əldən salar
Bu həyatda bir yol qalar.
Bala üçün o yurd salar.
Geri dönüb həmin evdə..

O yaşayar ömrü belə.
Axar zaman dönüb selə.
Daha getməz ölsə belə
Nifrət edər bu həyata.

Ömür keçib gedər hədər.
Təkcə ona qalar kədər.
Sevgi hissi ölər gedər.
Bir gərəksiz həyat  yaşar.

## QARANLIQ DÜŞƏNDƏ

Axşamın zülməti
çökəndə üstümə,
Həsrətin möhnəti
bulanır tüstümə.

Qaranlıq gecədə
sayrışan ulduzlar,
Gözəldi necə də?
əbədi sonsuzlar.

Hər tərəf bənzərsiz
baxırsan gözəldi.
Görünüş nəzərsiz
gözəllik özəldi.

Xəyala dalanda
beynin də dincəlir.
Sakitlik olanda
qəlbin də incəlir.

Arzular elində
yurd-yuva salırsan.
Fikirlər əlində
çaş-baş da qalırsan.

Xəyallar qurursan
heç biri olmasa.
Aciz tək durursan.
taqətin qalmasa.

Saralıb, solursan,
həyatdan bezirsən.
Səbirsiz olursan.
əlini üzürsən.

Önünə çıxanlar
düşəndə yadına
Yandırıb yaxanlar
çatmayıb dadına.

Ürəyin sökülər,
dillənə bilməzsən
Göz yaşın tökülər,
susarsan, dinməzsən.

Beləcə fikirlər
hey səni yoraraq
Özünə çəkirlər
qarşında duraraq.

Gözlərin tavanda
sakitcə baxırsan
Fikirlər yatanda
özün də axırsan.

Yatmağın gələndə
eləcə qalırsan
Sakitsən biləndə
yuxuya dalırsan.

(Bir nəfərin istəyi ilə yazılıb)

**OL YAŞAMA SƏBƏBİM**

Gedib gəlmir nəfəsim.
Ol yaşama səbəbim!.
Bağlı qalıb qəfəsim,
Ol yaşama səbəbim!

Necə əzab çəkirəm,
Səni gizli sevirəm.
Özüm sənə demirəm,
Ol yaşama səbəbim!

Özgə birin sevirsən,
Bunu mənə demirsən,
Sevdiyimi bilmirsən,.
Ol yaşama səbəbim!.

Gəlib burdan keçirsən.
Sakit dinməz gedirsən.
Mənə zülüm edirsən.
Ol yaşama səbəbim!.

Mənə baxıb gülsən də.
Yad bir adam bilsən də.
Yad etməyib silsən də.
Ol yaşama səbəbim!.

Mən özümə darıldım,
Bu həyatdan qırıldım.
Artıq sənsiz yoruldum.
Ol yaşama səbəbim!.

Günel sevib gizləyir.
İllər boyu gözləyir.
İndi deyir dözməyir.
Ol yaşama səbəbim!.
Ol yaşama səbəbim!

## NƏSİHƏT

Çalış şər-xətadan
aralı, uzaq get.
Qorun hər bəladan.
Nadanı kənar et.

Bir işin olanda
boş vaxtı itirmə.
Yorulub qalanda.
Candərdi bitirmə.

İş düşsə namərdə
hər sözə səbr elə.
Can düşsə bir dərdə.
Qismətdə var belə.

Çəkənlər dünyanın
ən ağır dərdini.
Tutsunlar zamanın
Cəld vuran nəbzini.

Yolunu seçənin
        ünvanı bəllidir.
İşi tez keçənin.
Sürəti yellidir.

Baş qoşma pislərə,
        həyatı şən yaşa.
Qapılma hislərə,
Bir ömrü vur başa.

Günelin düzünə
        çarəsiz qalma sən.
Dediyi sözünə
Biganə olma sən!

## YENİ İLİ QARŞILAYAQ

Köhnə gedir, təzə gəlir.
Yolkanı qur, bəzə gəlir!
Yeni ildə bizə gəlir.
Gəlişiylə bayram olur.

Fırlanıb biz dövrə vuraq.
Şən məzəli oyun quraq.
Köhnə ilə nöktə qoyaq.
Yeni ili qarşılayaq.

Şaxta baba qonaq gəlsin.
Hamı ona nəğmə desin.
Uşaqlara sovqat versin.
Təbrik etsin hər uşağı.

Yansın evdə çilçıraqlar.
Olsun üzdə xoş ovqatlar.
Tez paylansın şux sovqatlar.
Uşaqlar da sevinsinlər.

Bayram olsun, sevinc olsun.
Ürəklərə sevgi dolsun.
İstəmirəm rəngi solsun.
Qoy şad olsun hər bir uşaq.

Yeni ildə dərdlər bitsin.
Qara bulud üstən getsin.
Bütün dünya bayram etsin.
Daha dərdi yoxmuş kimi...

## HAQQIN ÖZÜ ALLAH YOLU

Mömin insan tək Allahın
Olmalıdı sadiq qulu.
Hər əməldə, gözəl işdə.
Tutmalıdı imam yolu.

Allah üçün hər əyilən.
Ona yaxın olsun gərək.
Dindar insan hər deyilən
Sözlə qəlbə dolsun gərək.

Doğru yolu ağıl seçər.
İradə də dayaq olar.
Həyat yolun insan keçər.
İşıqlı yol nurla dolar.

Dürüstlük çox baha mülkdü.
Hər adamda tapılmaz ki.!
Bir vicadsa ağır yükdü.
Daşısan sən satılmaz ki.!

Şeytan qorxar Allah desən.
Namaz qılıb dua etsən.
Ac kasıbın payın yesən.
Qəbul olmaz həccə getsən.

Haqqın özü Allah yolu
Namaz əhli haram yeməz.
Haram işdə olsa qolu.
Halal etdim Allah deməz.

Günel təkcə Allah deyər.
Haqqa nahaq deməz heç vaxt.
Zəhmət çəkib halal yeyər.
Haram çörək yeməz heç vaxt.

## EHTİYACIM YOXDU SİZƏ

Ətrafıma nəzər salsam.
Kövrələndə tənha qalsam.
Öz könlümü özüm alsam.
Ehtiyacım yoxdu sizə!

Kimin yoxsa dəyanəti.
Yəqin olmaz ləyaqəti.
Mən keçmirəm xəyanəti.
Ehtiyacım yoxdu sizə!

Yan-yörəmdə olanlara.
Məni dərdə salanlara.
Deyim yerdə qalanlara.
Ehtiyacım yoxdu sizə!

Yediklərim zəhər olub.
Düyünlənib qəhər olub.
Neçə gecəm səhər olub.
Ehtiyacım yoxdu sizə!

Gecə gündüz oyağam mən.
Öz-özümə dayağam mən.
Sanmayın ki, yamağam mən.
Ehtiyacım yoxdu sizə!

Heç insafa gəlməyənlər.
Göz yaşımı silməyənlər.
Qədir-qiymət bilməyənlər.
Ehtiyacım yoxdu sizə!

Qəlbimdə taxt qurmayanlar.
Əhvalımı sormayanlar.
Özlərini yormayanlar.
Ehtiyacım yoxdu sizə!

## DÖNƏR

Nə söz qanar, nə qandırar.
Sərt dediyin söz yandırar.
Yerə vurub qab sındırar.
Səbrin yetməz üzün dönər.

Haqsız yerə söz atana.
Dərd içinə dərd qatana.
Ələ salıb kef çatana.
Söz kar etməz, sözün dönər.

Dediyin söz getsə hədər.
Əvvəl, axır versə kədər.
Söz-söhbətdən başın gedər.
Ayaq getməz gözün dönər...

## İSTƏMİRƏM!

Müharibə qoy dayansın!
Qan tökülsün istəmirəm!
Məzar üstə vay dayansın!
Canlar ölsün istəmirəm!

Heç bir ana ağlamasın!
Balasının başı üstə
Ürəkləri dağlamasın!
Bir şəhidin daşı üstə!

Bir balası şəhid olan
Ana dağın istəmirəm!
Oğul gəzib gözü dolan
Saçda ağın istəmirəm!

Anaların gözlərində
Yaş olmağın istmirəm!
Dərd cizgisi üzlərində
Heç solmağın istəmirəm!

Qoy ucalsın haqqın səsi
Nahaq qanlar istəmirəm!
Qovaq ordan satqın kəsi
Şəhid canlar istəmirəm!

Allah mənə yetənimi
Alma daha istəmirəm!
Düşmən versin Vətənimi!
Özgə yerlər istəmirəm!

Vətən, dada çatan öldü!
Cansız bədən istəmirəm!
Dərd içində batan öldü!
Dərdli gedən istəmirəm!

## SONU YOX

Həyat təzadla doludur.
Hər kəs həyatın qoludur.
Hər ömür həyat yoludur.
Yolu salanın sonu yox.

Arsız insanlar yaşarlar.
Öyüb özlərin coşarlar.
Bəzən hədlərin aşarlar.
Belə olanın sonu yox.

Yalan sözün də həddi var.
Yalan danışan etmir ar.
Demir doğrular hər an var.
Onsuz yalanın sonu yox.

Çəksən əziyyət hədər boş.
Sevincli günlər sənə xoş.
Millətə qarış, qayna çoş.
Aciz qalanın sonu yox.

Yaşamaq istər hər insan
Həyatdan necə doyasan.?
Ömür-gününü sayasan.
Dərdlə solanın sonu yox.

İşğal olunmuş rayonlarımıza həsr edilib.

## MƏN DİZ ÇÖKƏCƏM

Baxsan gileylidir Laçın, Qubadlı.
İşğalda elim var Zəngilan adlı.
Kim qaytarsa yurdu andlı-büsatlı.
Ərənin önündə mən diz çökəcəm!

Ağdərə, Xankəndi tapdaq altında.
İllərlə yaşadıq qınaq altında.
Düşmənin cavabın Allah qatında.
Verənin önündə mən diz çökəcəm!

Xocalı dəhşəti sarsıtdı məni.
Günahsız ölülər ağlatdı məni.
Kimlər diz çökdürsə qatı düşməni.
Gedənin önündə mən diz çökəcəm!

Düşmən məskən salıb mənim elimdə.
Füzuli qəlbimdə, Ağdam dilimdə.
Üçrəngli bayrağım tutub əlində.
Vətənin önündə mən diz çökəcəm.!

Kəlbəcərin ahı göyə ucaldı.
Cəbrayılsız çökdü, bu can qocaldı.
Hər kim tez zamanda torpağı aldı.
Edənin önündə mən diz çökəcəm.

Qoruyur əsgərlər hər an sərhəddi.
Vətən azadlığı onların əhdi.
Hansı gün tutsalar verilən vədi.
Vədinin önündə mən diz çökəcəm.

Biz gəzək dünyanı yurda tay harda.
Gəlin Qarabağı qoymayaq darda.
Qələbə sevincin qeyd edək orda.
Deyənin önündə mən diz çökəcəm.

Milli Qəhrəmanımız, fəxrimiz Mübariz İbrahimovun əziz xatirəsinə. Allah Mübariz və bütün şəhidlərimizə rəhmət eləsin!.

## MÜBARİZ OLDUN

Dözmədin Xocalı çəkdiyi dağa
Seçildin sıradan çıxdın qabağa.
Getdin Qarabağa qisas almağa.
Adın tək hünərli Mübariz oldun.

Durdun ön cəbhədə, çoxaldı öfkən.
Dedin qisasımı alacam hökmən.
Axı başqaları yox, niyə bir tək sən?
Adın tək hünərli Mübariz oldun.!

Tək canınla getmək eşqinə doldun.
Vətəndə gül açıb, səngərdə soldun.
İgidlik gösdərib qəlblərə doldun.
Adın tək hünərli Mübariz oldun.!

Örnəksən şəhidim gələcək nəslə.
Fəxr etdik vətənə getmiş bir kəslə.
Çəkilməyib geri,sən son nəfəslə.
Adın tək hünərli Mübariz oldun.!

Qəlbin alovlandı, yandı odunla.
Sən hünər göstərdin öz inadınla.
Əsl qəhrəman oldun şəhid adınla.
Adıntək hünərli Mübariz oldun!

## AZƏRBAYCAN

Vətəndə çox yeri talan etdilər.
Cana-can, qana-qan al Azərbaycan.
Qondarma bir dövlət elan etdilər.
Cana-can, qana-qan al Azərbaycan!!!

Yurd qorumaq oğul görəvi olub.
Döyüşdə qeyrəti, şərəfi olub.
Çox insan düşmənin hədəfi olub.
Cana-can, qana-qan al Azərbaycan!!!

Şəhid məzarları sinədə dağdı.
Yox onlar ölməyib, qəlblərdə sağdı!
Vallah dağa dərman tək Qarabağdı.
Cana-can, qana-qan al Azərbaycan!!!

Dünyada hər cürə var hörmətimiz.
Vətəndə gücdən də çox qüdrətimiz.
Çalış bütöv olsun bu dövlətimiz.
Cana-can, qana-qan al Azərbaycan!!!

Xalqımız həmişə torpağı sevdi.
Birləşib azadlıq şüarı seçdi.
Hər zaman Qarabağ bizimdi dedi.
Cana-can, qana-qan al Azərbaycan!!!

Yenicə tikilib istifadəyə verilmiş məktəbimizə həsr etdiyim şeir.

## YENİ MƏKTƏB

Köhnəlmiş məktəbi bizlər pislədik.
Uşaqlı-böyüklü xeyli gözlədik.
Tiksinlər bir yaxşı məktəb istədik.
Nəhayət tikdilər xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

Biz çətin günləri görüb gəlmişik.
Necə əziyyətlər çəkib gəlmişik.
O köhnə məktəbi qoyub gəlmişik.
Nəhayət tikdilər, xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

Tikməyə çəkdiniz əziyyət sizlər.
İndi tərif edək məktəbi bizlər.
Oxusun uşaqlar ağ olsun üzlər.
Nəhayət tikdilər xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

Gəlin indi keçək əsas mətləbə.
Xeyir-dua verək gözəl məktəbə.
Səsləyək hər kəsi elmə-ədəbə.
Nəhayət tikdilər, xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

Deyirlər ki, elmdir ağlın çırağı.
Şagirdin hər elmə olsun marağı.
Ali məktəblərdən gəlsin sorağı.
Nəhayət tikdilər  xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

İstəyən gətirsin dilə duyğusun.
Rəhbərin millətə belə qayğısın.
Təhsildə hər kəsə bizə sayğısın.
Nəhayət tikdilər  xeyirli olsun.
Təhsilimiz burda uğurlu olsun.

## ÇAL SAZI

Aşıq qardaş, elimizi vəsf elə!
Al əlinə sim dinəndə çal sazı!
Elə çal ki, hər bir kəsi məst elə!
Bir ürəklə bas sinəndə çal sazı!

Vur mizrabı sarı simlər dillənsin.
Gözəl sazda baş sarıtel səslənsin.
Qoy arada qoşma, dastan söylənsin!
Aşıq qardaş əl belində çal sazı!

Çal sazını gözəllərə dastan qoş.
At nazını, əzizlənmə, hərdən çoş.
Yubanma sən, ömür qısa,dünya boş.
Unut qəmi al əlində çal sazı!

Milli alət kaman, tar da gözəldi.
Sən çaldığın  hər bir nəğmə özəldi.
Elə çaldın, əhvalımız düzəldi!
Gülər üzlə, öz dilində çal sazı!

Çal ki, səsin uzaqlara yayılsın!
Kövrək qəlblər nəşələnsin, bayılsın!
Səsə düşmən,qoy partlasın, yarılsın!
Qarabağda! get elində çal sazı!

## YAZIQ DÜNYA, QINAMIRAM MƏN SƏNI

Gözəl dünya, Vallah, səndə günah yox!
Danlamıram, yanlamıram mən səni.
Arlı, arsız insanlarda günah çox.
Yazıq dünya, qınamıram mən səni!.

Gözəlliyin məst eləyib bizləri,
Qalıb səndə çoxlarının izləri.
Qınayıram, ey insanlar sizləri!
Yazıq dünya, qınamıram mən səni!.

Haqq yolunda yaxşılığı etməyən,
Düzü deyib doğru yolu getməyən,
İnsanlardı zülümləri bitməyən,
Yazıq dünya, qınamıram mən səni!.

Seçmək olmur yaxşılardan pisləri,
Danmaq olmur qəlbi qıran hisləri.
Qınayıram zalım olan kəsləri.
Yazıq dünya, qınamıram mən səni!.

## ÖZÜNƏ YAXŞI BAX SÖZÜNÜ DEMƏ

Sən məni yenəmi mənə tapşırıb.
Gedirsən dərt-qəmi mənə tapşırıb.
Gözümdəki nəmi mənə tapşırıb
Özünə yaxşı bax sözünü demə!.

Ayrılıq həsrətin özün etsən də.
Getmək qərarın çoxdan seçsən də.
Ömürlük tərk edib çıxıb getsən də.
Özünə yaxşı bax sözünü demə!.

Deyirsən mən gedim, amma gəlmə sən
Uçurumdan düşsən çalış ölmə sən!
Ölmərəm sən məni aciz bilməsən.
Özünə yaxşı bax sözünü demə!.

Məndən ayrı yerdə qəti darıxma.
Özgəsin axtarıb tapsan karıxma
Sən xəyanət etdin desəm duruxma
Özünə yaxşı bax sözünü demə!.

Zərbəni vurursan yenə də mənə.
Ağladım qarşında  qal dedim sənə.
Yol üstündə bəsdi, gəl vurma tənə.
Özünə yaxşı bax sözünü demə!.

Həyatdakı səhvimizi danırıq.
Günahkarıq, günah səndə sanırıq.
Niyə səni  qınayaraq  yanırıq?
Yazıq dünya, qınamıram mən səni!.

Nankor insan qarşımızda gəzirsə,
Haqsız yerə zəyifləri əzirsə,
Bu Günelə ağız, burun büzürsə....
Yazıq dünya, qınamıram mən səni!.

.

Əziz bacım Gülnar və əmim Nicatın uzun illər həsrətini çəkdikləri qız övladları dünyaya gəlib və mələyimiz dünyamıza xoş gəlib. Evlərinə sevinc gətirib. Gülnarın istəyi ilə Mədinə balamıza həsr etdiyim bir neçə bəndlik şeir. Qızım adlı şeir Mədinəyə və bütün qız balalarımıza.

**QIZIM**

Ömrümə xoş gəldin, ay canım mənim
Dünyama nur saçan mərcanım mənim
Canımdan bir parça ət-qanım mənim
Sənsiz bir günümüz olmasın qızım!

Həyatımda açan bir tək çiçəksən
Gül-çiçək içində necə göyçəksən?
Qadasın aldığım niyə ürkəksən?
Qəlbinə qəm-kədər dolmasın qızım!

Göylərdə parlayan tək ulduzumsan
Şirinim, şəkərim həm də duzumsan
Ürəyi çırpınan ürkək quzumsan.
Allah bizi ayrı salmasın qızım!

Gündüzlər günəşim gecə ayımsam
Tanrının verdiyi şirin payımsan!
Mənə sərt qışımda isti yayımsan.
Allah istiliyi almasın qızım!

Anan qurban olsun sənin özünə
Mənə ana deyən şirin sözünə
Qaş-qabaq yaraşmır gülən üzünə
Üzünün çöhrəsi solmasın qızım!

Qulaq as Günelin dediyi sözə
Rəbbim naxış çəkib simanda üzə
Heç vaxt gəlməyəsən nəzərə, gözə
Üstündə bədnəzər qalmasın qızım.!

## MƏMURA BAŞ ƏYIB QULU SOYURUQ

Rəbbim haqq göndərib Quranın özün.
Sərt qanunun həddin bizlər qoyuruq
Haqqı, ədaləti görənin gözün
Nahaqqı deməsə deşib oyuruq.

Gözümüz  görsə də qanunu pozub
Haqlının dediyin nahaqqa yozub.
Namərdin yoluyla gedərək azıb.
Bir şirin kəlməyə  sözə uyuruq.

Zülümkar bəndənin qan örtüb gözün
Millətim deməyir doğrusun, düzün
Söz verən görmüşük əllisin, yüzün
Əməlsiz vədləri  gözəl duyuruq.

Zülmətin içində  gedirik hara?
Dindir qan ağlayır ürəyi yara
Pakların üstünə çökəndə qara
Bilə-bilə ağı  qara yuyuruq.

Günel nə edirsə görür Yaradan.
Çoxların götürüb erkən aradan.
Biz seçə bilmirik ağı qaradan.
Məmura baş əyib qulu soyuruq...

## DEYİLƏM

İnadla durmusan, elə qəstimə,
Acıdiləm deyə məni pisləmə,
Könlünü almağı məndən istəmə,
Mən sənin könlünü alan deyiləm!

Mənim duyğularım sərin olsa da,
Mənə qarşı sevgin dərin olsa da,
Qəlbində mənə görə yerin olsa da,
Onsuzda mən orda qalan deyiləm.!

Dürüstlükdə mənə çata bilməzsən!
Məni söz-söhbətə qata bilməzsən!
Yalançı çıxarıb ata bilməzsən!
Mən sözümə düzəm, yalan deyiləm!

Fağır kimi durub mənə baxsanda,
Mələyin maskasın üzə taxsanda,
Lap, özünü göydən yerə çaxsanda,
Heç vaxt sənin yarın olan deyiləm.!

Sənli günlərimi qəlbimdən silib,
Ağlımda, fikrimdə qalmamış bilib,
Olub keçənləri olmamış  bilib.
Birdə səni yada salan deyiləm.!

## XOŞBƏXT, BƏDBƏXT ADAMLAR

Xoşbəxt adamlara uzun bir ömür,
Həyatda yaşamaq çox qısa gələr.
Bədbəxt adamlarsa bir günü belə,
Bir ömür keçmiş tək, lap uzun bilər.

Xoşbəxt olan kəsə paxıllıq etmək,
Ona köks ötürüb gizli yanmaqdır.
Qəlbi təmiz olub birinə yanmaq,
Özün ona görə dərdli sanmaqdır.

Başqa insanların həyat tərzindən,
Nəticə çıxaran insan xoşbəxtdir.
Gördüyü işləri üzə  vuranlar,
Öz işindən yoxdu sansa bədbəxtdir.!

Vərdişə çevrilmiş əməllər üçün,
Heç vicdan əzabı çəkməyənlər var.
Bir iş  gəlsə əgər, insan başına,
Bir damcı göz yaşı tökməyənlər var!

Günel insanlara verilən dəyər,
Maddi dəyərlərlə ölçülə bilməz.
Dəyərin mənəvi tərəfi varsa....
Dəyərli insanlar kiçilə bilməz.!

## OLMA

Sözbaz insanlara səhv söz ötürüb
Qeybətcil olmağa adətkar olma!
Özgənin günahın üstə götürüb
Boş sözə, söhbətə səbəbkar olma!

Etdiyin pisliyin toxumun əkib
Hiyləylə qazancı özünə çəkib.
Günahsız insanın gözünü töküb
Fağırlara qarşı zülümkar olma!

Böyüyü dinləyib al sən nəsihət
Həyatda etmə gəl bircə qəbahət.
Şeytana uyarsan artar  cəhalət,
Ağılsız olsan da günahkar olma!

Günelin çörəyi halal qənimət.
Çalışıb zəhmətlə çəkib əziyyət.
Hünərsiz düzəlməz bil ki, vəziyyət,
Bəri başdan ac ol, tamahkar olma!

## QADINLAR

Hər zaman işləyər alın təriylə,
Çoxlu qayğıları, dərdi-səriylə,
Qəlbini göynədən neçə sirriylə,
Yaşayar həyatda dözər qadınlar.

Böyüdər övladın qayğısın çəkər.
Kövrəlsə gizlincə göz yaşı tökər.
Evinin  xanımı olarsa  nökər,
Gördüyü əzabdan bezər qadınlar.

Allaha şükr edər hər axşam, səhər,
Qoruyar ocağın yesə də zəhər.
İlişər boğazda boğduğu qəhər.
Dayima xoşbəxtlik  gəzər qadınlar.

Günel onun qədər anlamaz hamı.
Övladın xoş günü arzusu, kamı.
Bərkə-boşa salsa  həyat adamı,
Çətinlik sınağın çözər qadınlar.

## GÖZLƏRİ

Qəlbin aynasıdır, üzün siması,
Süzülən gözlərin vardır iması.
Bəlli olur kimin necə baxması,
Baxışdan baxanın qanır gözləri.

İnsanın əhvalı gözdən duyulur.
Yorğun ya da şəndir üzdən duyulur.
Ağzını açanda sözdən duyulur.
O zaman alışır, yanır gözləri.

Sevən sevdiyini oda salanda
Tərk edib gedəndə, tənha qalanda
Fikirli  halında yada salanda,
Sevgisin, nifrətin anır gözləri.

İnsan var həyatda gülür, ağlayır.
Hüzünü, kədəri ürək dağlayır.
Bildirmir heç kəsə coşub, çağlayır
Qəmgin olduğunu danır gözləri.

Gözlərə kim necə baxır bilsə də.
Gözünün yaşını  özü silsə də
Günel gözlərini  yumub ölsə də.
Gördüyünü gözəl sanır gözləri.

## XƏSTƏLiK iNADLA MƏNLƏ YARIŞIR

Xəstəyəm, canımda ağrılar olur.
Ağrıdan rəngim də saralır, solur.
Soruşan olanda gözlərim dolur.
Yaş axır içimə, üzə süzmürəm!

Axı nə baladır, keçib qanıma
Görünməz bir dərtdi düşüb canıma
Çəkdiyim ağrılar çıxıb sonuma.
Dizimi gətirib yerə gəzmirəm.!

Dərmanı atıram mədəm alışır.
Başımda fırlanır halım qarışır.
Xəstəlik inadla mənlə yarışır.
Təslim də olmuram, əli üzmürəm.!

Ağrılar, acılar səngimək bilmir.
Atdığım dərmanlar xeyir də, etmir.
Yuxusuz gecələr bitmir ki, bitmir.
Canımdan bezirəm, daha dözmürəm!

Xəstəlik bir deyil, neçəsi birdən
Artanda ağrılar, durmuram yerdən.
Günel can şirindi, deyirəm hərdən,
Naşükür olmuram ondan bezmirəm.!

## BİLMƏZ

Adam var ki, sözdə öyər özünü
Bir iş görsə başa gətirə bilməz.
Adam var ki, işdə deyər sözünü
Kimsə ona çatıb, yetirə bilməz.

Adam var ki, onu başa salarsan.
Baxmasa sözünə aciz qalarsan.
Adam var ki, ona kömək olarsan
Köməksiz işini bitirə bilməz.

Adam var ki, özü dürüst mətindir.
Adam var ki, başa salmaq çətindir
Yaxşını göstərib pisdən çəkindir.
Onsuzda gördüyün götürə bilməz.

Adam var ki, tamam qəlbdən silərsən.
Adam var ki, ondan ötrü ölərsən.
Güvənərsən həyat sirrin bölərsən
Ölsədə  dilinə  gətirə bilməz.

## DÜNYA BOŞDU, YALANDI

Dünyamız dəyişib çətin zamandı,
Deyirlər səs etmə, dinmə amandır,
Adam var toxunma, dəymə yamandır,
Önünə çıxanı zəlil qoyandır.

Danışdığı sözün çoxu yalandı,
Tutulsa səhvləri aciz qalandı,
Zəhərli ilantək adam çalandı,
Gördüyü işləri xalqa ziyandı!

Yanımcıl insanlar qeydə qalandı.
Özgə üçün özün dərdə salandı,
Laqeyd olan insan ömrü alandı,
Dostluğu onunla çalış dayandı!

Kövrək adam gözü yaşla dolandı,
Dərdləri içinə salıb solandı,
Heç kəsi saymayan arsız olandı,
Abırı, həyası bəlli, bəyandı.

Dünya sizə nə də bizə qalandı,
Bərk tutmayın ondan boşdu, yalandı.
Dünyaya aldanan xəyal qurandı.
Artıq xəyal quran yatıb oyandı!

## AY VƏTƏN OĞLU!

Vətən keşiyində məğrur durmusan.
Silahın əlində ay vətən oğlu!
Sərhədlər boyunca postlar qurmusan
Yarağın belində, ay vətən oğlu!

Qarabağ çağırır səni köməyə
Düşmənə tutarlı sözü deməyə
Gedirsənmi yurdu xilas etməyə?
Azadlıq dilində, ay vətən oğlu!

İmkan verme, orda cəllad doğulsun
Çıxsın Qarabağdan artıq qovulsun
Aldığı torpaqda batsın boğulsun!
Düşmən qan selində, ay vətən oğlu!

Əsir Qarabağa tərəf yön al sən!
Məhv edib düşməni qələbə çal sən!
Sancıb bayrağını əbədi qal sən!
Doğmaca elində, ay vətən oğlu!

Alanda Şuşanı qurban kəsərsən!
Vətənin torpağın gedib gəzərsən
Sevincdən Günellə  elə süzərsən!
Mahnının zilində, ay vətən oğlu

## PAY VERSƏN MƏNƏ!

Allahım  illərlə səsləndim sənə.
Nə olar bircə dəfə hay versən mənə!
Silib xatirəmdən acı günləri.
Təkcə xoş günlərdən pay versən mənə!

Almaram dünyanın varın-dövlətin.
Şan-şöhrət içində vay versən mənə!
Mən ağlar qalmayım, yaşayım kasıb.
Halal çörəyimi şay versən mənə!

Həyatda taleyim gülsə üzümə.
Üstümdə günəşlə, ay versən mənə!
Yandıran ocağın atma közünə,
Sərt qışında isti yay versən mənə!

Çoxlu yaşamağı mən istəmərəm.
Yaşatdığın canı zay versən mənə!
Xəstə də olmağı mən istəmərəm.
Ömrümün günlərin say ver sən mənə!

Qoyma nadan kəsi çıxsın qarşıma!
Önümə çıxanı tay versən mənə.
Bir ömür yaşayım xoşbəxt firavan.
Bir gözəl həyatı pay versən mənə!!.

## ŞƏHİD QARDAŞIM

On səkkiz yaşına üç ayı qalmış.
Xidmətə getməyi ağlına salmış.
Səngərdə silahı əlinə almış.
Sipər etmiş canın şəhid qardaşım!

Vətənin, millətin dərdinə düşdün.
Ağdamın Güllücə kəndinə düşdün.
Torpağı almağın eşqinə düşdün.
Vətəndi dərmanın şəhid qardaşım!

Cəbhə bölgəsini  bilərək seçdin
Qanlı döyüş yolun şərəflə keçdin
Əlində silahla düşməni biçdin.
Aldın yoldaş qanın şəhid qardaşım!

İgidlik göstərib dayim mərd oldun.
Xalqa qənim çıxan kəsə sərt oldun.
Yoxluğunla bizə yaman dərd oldun!
Yaşayır ad-sanın şəhid qardaşım!

Gödəklər kəndinin şəhid balası.
El-oban hər zaman yada salası.
Elə bir oğulsan yadda qalası
Fəxrisən atanın şəhid qardaşım!

İgid əmim oğlu Əliyev RÖVŞƏN
Düşmənlərə qarşı mərdcə döyüşən.
Vətənçün can verib cənnətə düşən.
Behiştdir məkanın şəhid qardaşım!

.

İnternetdə səhifələrin birində ağsaçlı, qara geyimli bir şəhid anasının balasının məzarı üstə ağlayarkən çəkib paylaşmışdılar. Orda anamızın ağı deyib ağlamağını, balasının baş daşından onu qopara bilmədiklərini izləyərkən özümümü saxlaya bilmədim. Hönkür-hönkür ağladım. Hətta evdəkilər məni görməsin deyə içəri otaqlardan birinə keçdim. Çünki o qədər dolmuşdum ki, qəhərimi içimdə boğa bilmirdim. Həmin anda fikirləşirdim ki, kaş o ananın yanında olaydım, oğlunu geri qaytara bilməsəm də, ona sarılıb təskinlik verərdim. Allah insana çəkə bilməyəcəyi dərd vermir Amma övlad itkisi ana üçün çəkilməyəcək dərdlərdəndi. Allah heç bir ananı övladı üçün gözü yaşlı qoymasın.

## ŞƏHİD MƏZARI ÜSTƏ AĞLAYAN ANA.

Oğul məzarı üstə ağlayan ana!
Qurban olum sənə belə ağlama!
Qara yaylıq başa bağlayan ana!
Yenə məzar üstə ürək dağlama!

Bilirəm gözlərin baxır hey yola
Deyirsən kaş oğlum yenə sağ ola!
Geri dönməyəcək o şəhid bala!
Oğulsuz dərdinə qurbanam ana!

Çəkdiyin dərdlərin dağlarda daşa
Mən dözə bilmirəm gözündə yaşa!
Dərd çəkib vurmusan ömrünü başa
Qocalmış canına qıymıram ana!

Oğulsuz sevinən günün olmayıb.
Qəmli gözlərinin suyu qalmayıb!
Torpaq təkcə səndən bala almayıb
Balasın itirən tək sən deyilsən!

Evinin nəşəsi, sevinci gedib.
Fələk cavan yaşda oğulsuz edib.
Bu ağır itkidən çoxuna verib!
Səbr elə anacan, belə ağlama!!!

## HƏRDƏN

Könlüm boynu əyri körpə bənövşə
Nələrə dözürəm danıram hərdən.
Bəzən qəlbim olur nazik bir şüşə
Elə toxunurlar sınıram hərdən.

Gecələr fikirdən yata bilmirəm
Bir tərəfdə qərar tuta bilmirəm.
Rəngsiz ömrümə rəng qata bilmirəm.
Tutduğum əmələ yanıram hərdən.

Ümüdsiz həyatım dözmür acıma
Cavan yaşda ağlar düşüb saçıma
Payız yazdan əvvəl gəlib bağçama
Yaşılı sarıdır sanıram hərdən.

Özümlə öyünmək deyil xislətim.
Yol vermir deməyə, abır-ismətim
Yenə üsyan edir mənə qismətim.
Etdiyim səhvləri anıram hərdən.

Sınmış könülləri ələ almağı
Qəlbə yol açıb orda qalmağı
Həyat yollarında cığır salmağı
İstəsəmdə aciz qalıram hərdən.

## ÇOXLARI

Həyatda heç kəsdən umacağım yox.
İllərdi sızlayır qəlbimdəki ox.
Bu dünya zalımdı, düşmənlərsə çox,
Oxunu hədəfə atıb çoxları!.

Haqsız olan kəslər düşüb gözümdən,
Yalan üstün olub mənim sözündən,
Bax budur çıxardan məni özümdən.
Yalanla arzuya çatıb çoxları!

Silən olmayıbdı gözdən yaşımı,
Anlayan olmayıb heç təlaşımı.
Ötüb keçən illər qatıb başımı,
Cahili nadana satıb çoxları!

Sözümü dinləyən insanla varam!
Nə qədər varsınız yeməyin haram.
Görsəm halal işlər sağalar yaram
Haramla günaha batıb çoxları!

Haqsızlar haqlının önünə çıxıb,
Günel, günahsızlar canların sıxıb,
Atılan şər-böhtan çox evlər yıxıb.
Hələ yuxudadır yatıb çoxları!

## ALLAHI YADINA SALMAYAN İNSAN

Göy olan qıymazlar çoxdur əzəldən.
Nəyisə istəsən verməz heç əldən
Göyərər əl çəkməz acgöz əməldən
Dünyanın malından doymayan insan.

Geyinər, kecinər yandırar, yaxar
Üstünə bahalı qır-qızıl taxar.
Yuxardan aşağı kasıba baxar.
Varlanıb kimsəni saymayan insan.

Loğalanar pulla, şişirdər özün.
Özündən zəyifə keçirdər sözün.
Qəzəbi tutanda qan örtər gözün.
Allahı yadına salmayan insan.

Fəhlənin haqqını necə yeyirsən?
Mərd insan yanında düzəm deyirsən.
Əyninə şeytanın donun geyirsən,
İblisdən geriyə qalmayan insan!

Şərəfi, mənliyi, vicdanı satıb,
Əziyyət çəkmədən qazanca çatıb,
Gördüyü işlərlə günaha batıb,
Əməlin boynuna almayan insan.

Süfrədə çox olsa əgər çörəyi,
Düşünməz kiminsə olar gərəyi,
Yoxsula verməsə daşdır ürəyi,.
Qəlbində mərhəmət olmayan insan.

1 iyun uşaqların beynəlxalq müdafiəsi günü münasibətilə.

## KAŞ YENƏ QAYIDIB UŞAQ OLAYDIQ

Neçə il keçsə də qalıb izimiz
Yıxılaq çapılsın yenə dizimiz,
Dərd-qəmsiz uşaq tək gülsə üzümüz
Kaş yenə qayıdıb uşaq olaydıq!

Oynamağa görə yenə ağlayıb,
İcazə alanda çoşub, çağlayıb,
Xəsarət alanda yara bağlayıb,
Kaş yenə qayıdıb uşaq olaydıq!

Kaş meyvə yığmağa, yenə gedəydik.
Qonşu həyətinə xəlvət keçəydik.
Bunları anadan gizlin edəydik.
Kaş yenə qayıdıb uşaq olaydıq!

Bağda uşaqlarla ağaca çıxıb,
İçəydik meyvənin suyunu sıxıb,
Hərdənbir dalaşıb ağacdan yıxıb,
Kaş yenə qayıdıb uşaq olaydıq!

Həyatda olaydıq qəmsiz-kədərsiz,
Dünyanın işindən xəbər-ətərsiz,
Uşaxlıq çağının dövrü əvəzsiz,
Kaş yenə qayıdıb uşaq olaydıq!

Günelin arzusu yetsə yerinə,
Xəyallar quranda getsə dərinə,
Arzular içindən çatsaq birinə,
Kaş yenə qayıdıb uşaq olaydıq!

## BİZ

Çox ömrün payızı qışdan əzəldi.
Keçən gün ağacdan düşən xəzəldi.
Yaşının hər ötən günü gözəldi.
Bir anın qədrini  gəlin bilək biz.

Bizi məhv eləyən həyat özüdü.
Uğursuz bəxtin yanan közüdü.
Bəxtdən  küsənin yaman sözüdü.
Talehin zülmünə hər an dözək biz.

Yaxşı bəndəyə pis demə dalınca.
Pisliklər insanı gözdən salınca.
Zaman ötüb keçər, tənha qalınca
O acı günləri qəlbdən silək biz.

ALLAH kimlərdən ki, üzün döndərib
Yalan danışanın çarxın çöndərib.
Kədərlə bərabər sevinc göndərib,
Hər zaman  sevinclə deyək gülək biz.

## ALLAH YETİRSİN.

İlahi yoxsulluq çoxunun dərdi.
Sən möhtac eləmə namərdə mərdi.
Namərddən alınan bal da zəhərdi.
Qoy halal çörəyi Allah yetirsin!.

Mən nələr görmüşəm, yalan dünyada.
İnsanlar etdiyin, salsın bir yada.
Heç kəsi verməsin güdaza-bada.
İnsana köməyi Allah yetirsin!.

Gəlməsin bir bəla mənim elimə.
Cavan insan layiq deyil ölümə.
Xəstə də düşməsin aciz zülümə.
Təpərli ürəyi Allah yetirsin!.

Düşməyək zalımın nəs ayağına.
Ehtiyac duymayaq pis dayağına.
Biz dözək həyatın hər sınağına.
Yenilməz kürəyi Allah yetirsin!.

İmanlı olanın artar hörməti.
Kəramət sahibi verər sərvəti.
Tanrı qoyar bizə ömür möhləti
Üzüağ ölməyi Allah yetirsin!.

## DƏYİŞİR

Ömrü hərə bir cür yaşayıb keçir.
Həyatda pis yaxşı məskənin seçir.
Nə bilək kim necə iztirab çəkir?
Yaşadıqca həyat yaman dəyişir.

Can yandırıb biz də qeydə qalsaq da,
Pisliklərə qarşı yaxşı olsaq da,
Elə hey çırpınıb qanad çalsaq da.
İnandığın kəsə güman dəyişir.

Çəkdiyi əzablar yorur adamı.
Azalır insana olan inamı.
Hər qəlbin eyni cür olmur ilhamı,
İnamsız olanda  iman dəyişir.

Dünyanı anlayan olmayıb hələ.
Əbədi yaşayan olmayıb hələ,
Dünya boşalır dolmayıb hələ.
Yaşamı ölümlə zaman dəyişir.

## ANAM

Bir həzin nəğməylə layla çalardın.
Yatmayıb gecələr oyaq qalardın.
Nə istəsək səndən onu alardın.
Başım üstə layla çalanım anam.

Körpəlikdən mənim qeydimə qalan.
Nə vaxt xəstə olsam, içinə salan.
Gündə neçə dəfə qadamı alan.
Şirin sözlə könlü alanım anam.

Sənsən övladların gözəl anası.
Yoxdu səndən özgə bizə yanası.
Nə vaxt dara düşsə ana balası.
Tez gəlib qeydinə qalanım anam.

Övlad üçün ana vuran ürəyi
Ona söykəndiyi möhkəm dirəyi.
Anadır hər zaman evin gərəyi.
Dərdimin dərmanı olanım anam.

## BİLMƏZSƏN

Əslində saf, incə bilirdim səni,
Sanırdım incitməz sevən-sevəni.
Yanıldım eşidib acı kəlməni.
Gördüm sən mənə tay ola bilməzsən!

Ey soyuq baxışlı zülümkar bəndə
Heç varmı bir qram mərhəmət səndə?
Səndən mən nə qədər dursamda gendə
Sən ürək qırmasan qala bilməzsən!

Səbr edirəm bəlkə əzablar keçər,
Keçmək nədi, hər gün daha da betər.
Lap belə özünü yaxşı da göstər.
Xeyri yox sən insan ola bilməzsən!

Sənə qarşı olan kin, nifrətim bol,
Təki mənim kimi dərtdən sən də sol,
Qəlbinin içində daş-kəsəkli yol,
O yolda könlümü ala bilməzsən!

Həyatla çarpışan dürüst insanam,.
Əqrəbi ötüşən saat, zamanam,
Günələm əyilən, nə də sınanam,
Sən qəlbimdə iz də sala bilməzsən!!!

Mənsurə bibimin əziz xatirəsinə həsr etmişəm. Allah rəhmət eləsin. Ruhu şad olsun.

## BİBİ

Bibi səni vaxtsız tapdı xəstəlik,
İkisi də birdən gəldi üstəlik.
Yapışdı canından sənin qopmadı,
Nə üçün üstünə çökdü xəstəlik?

Xəstə canın necə ağrılar çəkdi?
Dərdə aciz olan canında təkdi.
Heç dəva-dərmanda çarə olmadı!
Xəstəlik tez səni ölümə çəkdi!

Ümüdsiz baxaraq səni izləmək.
Ölümün gəlməsin vaxtsız gözləmək
Axı övlad üçün necə ağırdır.
O anda əlindən heç nə gəlməmək

Azar necə yıxdı yerə bilmədim,
Gedib səni canlı görə bilmədim,
Qurban olum bibi bağışla məni!
Mən sənin yanına gələ bilmədim!

Bibi gözlə məni o dünyada sən!
Təki rahat uyu o röyada sən!
İnşallah gələcəm bir gün yanına.
Bil ki tək qalmazsan o dünyada sən!

## GƏRƏK

Özünü ağıllı niyə sanırsan?
Pis iş görürsənsə niyə danırsan?
Doğru sözlərə sən niyə yanırsan?
Hər gördüyün işi qanasan gərək!

Bilməsə də özün sındıran yoxdu.
Qanmaz olan kəsi qandıran yoxdu.
Haqsızları odda yandıran yoxdu.
Günah etdinsə yanasan gərək!

Yaxşı insanların bir isməti var.
Həyatda hər kəsin bir qisməti var.
Günah işlərində qiyaməti var.
Ancaq kafir olsan danasan gərək!

Çoxlu acı çəkib ağlayan kəsin,
Kədəri ürəklər dağlayan kəsin.
Dərdli başa dəsmal bağlayan kəsin.
Dərdini özünkü sanasan  gərək!

Keçmişi özündən uzaq edəndə,
Xoş gündə dərdini qıraq edəndə.
Hərdən o günləri soraq edəndə.
Ötən günləri də anasan gərək!

## BİR YOLU VARSA

Bir sözüm var sizə yolun azanlar.
Bu gözəl həyatın işin pozanlar.
Çoxdu arxanızca sözlər yozanlar.
Çıxın bu çirkabdan bir yolu varsa!

Aldanmayın sözə,bir səs-sədaya
Bir anda düşərsiz çətin bəlaya
Qoşulmayın adı çıxmış sıraya
Çıxın bu çirkabdan bir yolu varsa!

Həyata keçirin xoş arzuları.
Fikirdən çıxarın boş duyğuları
Azaldın çoxalan o qayğıları.
Çıxın bu çirkabdan bir yolu varsa!

Bəlkə doğru-dürüst insan olarsız
Yaxşı əməllərlə siz ucalarsız.
Yaradandan çoxlu ruzi alarsız.
Çıxın bu çirkabdan bir yolu varsa!

## GÖZƏLDİ

Başımı qaldırıb göyə baxanda
Guruldayıb yerə şimşək çaxanda.
Yan-yana düzülüb bulud axanda.
Onların axışı tən də gözəldi.

Tüstü kimi yerə yayılan duman.
İrəli getməyə verməz heç aman.
Otların üstünə şeh düşən zaman.
Çiskinli duman da, çən də gözəldi.

İlahidən gözəl rəsmi çəkilmiş.
Sahələr boyunca zəmi əkilmiş.
Baxdıqca bu gözüm dənə dikilmiş
Yetişmiş sünbüldə dən də gözəldi.

Ağ örpək başında, çölün düzündə.
Bir gözəl mələksən qəmzə üzündə.
Gülüşün yanaqda,sürmə gözündə
Güləndə gözlərin səndə gözəldi.

## TAPMIRAM

Kimə ürək açıb sirrimi böldüm.
Özümə kimləri çox yaxın bildim.
Sözümü dananı ürəkdən sildim.
İndi mənə dayaq sirdaş tapmıram.

Heç baş açmadığım işə düşmüşəm.
Ölməyib dünyadan belə köçmüşəm.
Axı nadan kəsə necə dözmüşəm?
Dara düşəndə də yoldaş tapmıram.

Çoxlarının sözü qəlbimə dəydi,
Bel bağladığım kəs qəddimi əydi.
Tez qocalmağımın günahı nəydi?
Bircə qəlbəyaxın qardaş tapmıram.

## NAKAM SEVGİ

Sevib vurulmuşdum bir nazlı yara.
Tanrı alıb onu apardı hara?
O sevgimi nakam çatdırdı sona.
Yazdı qismətimə bəxtimi qara.

Fikrimdə canlanır o nazlı sona.
Unuda bilmirəm desəydim ona.
Axı sevən qəlbi qırmaq olarmı?
Desəydim sevgim də yetməzdi sona.

Hər saat, hər dəqiqə xəyalımdasan.
Söylə, ey gülüm, bəs sən hardasan.?
Ağlıma gəlməzdi bu həyatda sən.
Atıb məni belə tez unudasan.

Bir vaxtlar görməsəm sənin üzünü.
Mən dəli sanırdım özüm-özümü.
İllərdi gedişin sarsıdıb məni.
Yoxdu ürəyimin indi dözümü.

Gözəlim gəlmirsən, axı de niyə?
Nə vaxtsa sən geri dönərsən deyə.
Gözlərim elə hey baxır yollara.
Gözləyirəm səni sevirəm deyə....

## DİDƏRGİN DÜŞÜB

Mənfur ermənilər etdilər basqın.
Günahsız insanlar oldular qaçqın.
Axı,nə olacaq taleyi xalqın.
Səfalı elindən didərgin düşüb.

Evlərdə neçə ocaqlar söndü.
Millətin çörəyi ehsana döndü.
Qaçqın yazıq dönüb arxaya çöndü.
Gördü ki, evindən didərgin düşüb.

Axı ev-eşiyi viran qalıbdı.
Artıq qəsəbədə məskən salıbdı.
Neyləsin torpağı düşmən alıbdı.
Düşmənin əlindən didərgin düşüb.

Xalqıma düşmənlər zalım olubdu.
Girov düşən qardaş, bacım olubdu.
Ömrün bahar çağı,gülü solubdu.
İtkintək yerindən didərgin düşüb.

## OLACAQDI

Bu gün var olanı basıb yeyənin
Sabah tapmayanda ağız əyənin.
Yesə də doymadı gözüm deyənin.
Axı gözü nə vaxt tox olacaqdı?

Heç vaxt iş görmədən yeyib yatanın.
Halal çörəyinə haram qatanın.
Arzu, istəyinə vaxtsız çatanın.
Bir gün xoş günü də yox olacaqdı.

Lazım olan yerə əgər getməsəz
Yaşayıb boş yerə belə etməsəz.
Göstərib hünəri işə yetməsəz.
Onda qayğılar da çox olacaqdı.

Həyatda boş yerə günü keçənin.
Nə əkibsə onun barın biçənin.
Taleyin şərbətin acı içənin.
Sonda ömrü bitib yox olacaqdı.

## BÖYÜK YARADAN

Allahdır yeri-göyü var eləyən.
Naşükürə dünyanı dar eləyən.
Qışda yağan yağışı qar eləyən.
Çatarköməyinə Böyük Yaradan.

Haqq-ədaləti yazdırdı Quranda.
Həzin nəğmələr ucaldı Azanda.
Hər doğru yolu göstərib İmanda.
Çatar köməyinə Böyük Yaradan.

İnan ki, pis günün ömrü az olar.
Hər zaman sərt qışın sonu yaz olar.
Dərdini onunla bölsən azalar.
Çatar köməyinə Böyük Yaradan.

Allaha dualar edərsən hər an.
Səni nəzərindən ayırmaz bir an.
Rəbbinə yalvarıb, tək ona inan.
Çatar köməyinə Böyük Yaradan.

## MƏN

Bir təmiz dünya var içimdə mənim.
O gözəl dünyaya necə köçüm mən?
Saf arzu yer tutub qəlbimdə mənim
Vüsal şərbətini necə içim mən?

Bu həyat vəfasız ömürsə qısa
Axı xoşbəxt ömrü necə seçim mən?
Görsən qəmli könlüm batıbdır yasa.
Dərd-qəmsiz xoş günə necə keçim mən?

Mən bir quş tək göyə uçmaq istərəm.
Axı mümkün deyil, necə uçum mən?
Zalım insanlardan qaçmaq istərəm.
Yolunu tapmıram necə qaçım mən?

Bəzən çox fikirlər yorur başımı.
Söküb başdan fikri necə atım mən?
Bu qəmli gözümdən axan yaşımı.
Üzdən silib gecə, necə yatım mən?

Güneləm hər zaman çoxdu təlaşım.
Bir parlaq günəş tək necə saçım mən?
Təsəlli verməyə yoxdu sirdaşım.
Deyin bəs könlümü necə açım mən?

Əziz oxucular heç vaxt unutmadığım bir hadisəni sizə danışmaq istəyirəm.1999-cu il idi, mən 5-ci sinifdə oxuyurdum. Atamı səbəbsiz yerə işdən çıxartdılar. O buna görə fikir eləyirdi, amma ailəsini dolandırmaq məcburiyyətində idi. Ona görə pul qazanmaq üçün Rusiyaya getdi. Biz evdə üç uşaq anamla tək qalırdıq. Anamın gündüzlər tarlada işləməyi, gecələr ev işlərini görməyi hələ də gözümün önündən getmir. Anam bizi saxlamaq üçün çox əziyyət çəkirdi. Bir gün anam bizə çay dəmləyib gətirdi. Əlimizi uzatdıq qənd götürməyə, qəndqabında qənd yox idi. Anam kövrəldi. Dedi mağaza sahibi qəndi nisyə vermir, atanız pul göndərəcək, onda alacam. Mən içimdə kasıbçılığa, bu cürə yaşamağa üsyan qaldırsam da zarafata salıb anamın üzünü güldürmək üçün başladım sözü ora bura yozmağa. Elə o anda bu kəlmələri işlətdim

"Yaşayırıq ucqar bir kəntdə.
Kasıb insan tapmır heç qəntdə"

Qardaşımla bacım möhkəm güldülər mənim şeir sayağı bu sözlərimə. Başladılar məni lağa qoymağa. Dəqiq yadımda deyil amma bir vərəq gətirib. 2, 3 bənd şeir yazıb anama oxudum. Sanki anamın üzündə azacıq da olsa təbbəsüm yaratdım. Sonra vərəqi cırıb atdım. Amma Allahım başqa fikirlər şeirlər gətirdi ağlıma.... Əvvəlcə yazırdım sonra utanırdım uşaqlar lağ eləyəcəklər deyə cırıb atırdım. Lakin ilk dəfə yazdığım həmin şeir 20 il keçməsinə baxmayaraq hələ də yadımdan çıxmayıb.

Mən o şeiri yenidən yazdım. Çünki həmin şeirin sözləri yaradıcılığımın başlanğıcı üçün mənə təkan verdi.

**KƏNDDƏ**

Evinin içində hərə bir dərtdə
İllərdi yaşayırıq ucqar bir kəntdə.
Kasıb olan kəslər tapmır heç qənddə.
Bildirmir çəksə də möhnəti kənddə.

Çayını tapanlar, qəndini tapmaz,
Yediyi çörəyə haram da qatmaz.
Artanda qayğılar rahat da yatmaz.
Deyər Allah verib qisməti kənddə.

Pulu olmayanlar canını sıxar.
Oda-közə vurub özünü yaxar.
Əməkhaqqı beş-on qəpiyə baxar.
Belədir zəhmətin qitməti Kənddə.

Dünyanın malına gözləri toxdu.
Qohumdu ya yaddı heç fərqi yoxdu.
Mehriban, qayğıkeş adamlar çoxdu.
Qoyarlar hər kəsə hörməti kənddə.

Beyləqan rayonu Gödəklər kəndi
Nə fərqi var, Günel, hər yer Vətəndi.
Oğul-qız vətənçün candan keçəndi.
Bəllidir qeyrəti, isməti kənddə.

## QALMADI

Məni el tanıyır, sizi isə mən.
Məndə sizə baxan göz də qalmadı.
Görəndə yaxşı tək pisləri də mən.
Üzünə deməyə söz də qalmadı.

Vurulan zərbələr dəydi özümə.
Zamanla dediyim doğru sözümə.
Olmadı inanan mənim düzümə.
Onlara deməyə düz də qalmadı.

Nə qədər ömrüm var yemərəm haram.
Sözümü anlayan insanla varam.
İnsaflı olsalar sağalar yaram.
Diddilər yaramı çöz də qalmadı.

Yararsız canların bəzən öydülər.
Günahsız insanı əzib söydülər.
Çözüldü məsələ dizə döydülər.
Bağışla deməyə üz də qalmadı.

Ağlatdılar acı soğanlar kimi.
Qarda çiçək açıb solanlar kimi.
Sancdılar zəhərli ilanlar kimi.
Güneli yandıran köz də qalmadı.

## QEYRƏT AXTARMA DOSTUN SATANDA

Çətindir həyatın acı sınağı.
Bəzən dözülməzdir elin qınağı.
Qəlbimiz götürmür çəkilən dağı.
Günahsız birinə böhtan atanda.

Elə söz var səhvdir, düzü də yoxdur.
Yersiz işlədilən sözlər də çoxdur.
Sərt sözlər deyənin sözü də oxdur.
Atdığı oxları qəlbə batanda.

Pisliyin yarası sağala bilməz.
Piəməlli insan ucala bilməz
Haram yolla qazanc çoxala bilməz.
Havayı dövlətə, hara çatanda.

Həyatda nə olur görür gözümüz.
Qazanaq səvabı bizim özümüz.
Dərdimiz olsada gülsün üzümüz.
Kədərli günlərə sevinc qatanda.

Günel dürüst adam satmaz dostunu.
Canın fəda edər atmaz dostunu.
Dost əgər qurmasa möhkəm postunu.
Qeyrət axtarma dostun satanda.

## BİLMİRSƏN

Əlini əlimdən üzərək getdin.
Qaşını, gözünü süzərək getdin.
Ağzını, burnunu büzərək getdin.
Geriyə dönməyi belə bilmirsən.

Ayrılığı salan sözə, söhbətə.
İnandın hər kəsə dözdün həsrətə.
Son qoya bilmədin bu məhəbbətə.
Sən məni qəlbindən silə bilmirsən.

Məndən uzaqlaşıb yandırıb yaxdın.
Bəlkə də uzaqdan uzağa baxdın.
İnadın üzündən sonuma çıxdın.
Lap, istəsən belə gələ bilmirsən.

Yaman həsrət qaldım sənli günlərə,
Sənlə keçirdiyim xoşbəxt illərə.
Atıb getdin məni saldın dillərə.
Nələr çəkdiyimi bilə bilmirsən.

Heç bilməzdim qəlbin dönəcək daşa.
Qol-qola gəzirdik ikimiz qoşa.
Elə hey gülürdük verib baş-başa.
İndi mənsiz təkcə gülə bilmirsən.

Günelin  inciyən qəlbinə dəydin.
Boynu bükük qaldın başını əydin.
Dərdimdən vaxtında ölüb bitəydin.
İndi də ölürsən, ölə bilmirsən.

Rəfiqəmin istəyi ilə yazılıb.

## HEÇ BİLMİRƏM NİYƏ SEVDİM MƏN SƏNİ.

Səni hər an necə sevdim bilmədim.
Bu sevgidə sakit olub dinmədim.
Axı heç vaxt ürəyimdəm silmədim.
Heç bilmirəm niyə sevdim mən səni!?

Sevdiyimi bilə-bilə susdun sən.
Sevən yarı lağa qoyub yozdun sən.
Alınmadı, işi özün pozdun sən.
Heç bilmirəm niyə sevdim mən səni!?.

İstəmirəm ayrı birin seçməyi.
Çətin yolu tək başına keçməyi.
Rəva bildin acı şərbət içməyi.
Heç bilmirəm niyə sevdim mən səni!?

Səni sevən bir aşiqə dönmüşəm.
Eşq odunda yanıb, yanıb sönmüşəm.
Sənə görə dəyişmişəm, çönmüşəm.
Heç bilmirəm niyə sevdim mən səni!?

Xəstə könlü xoşbəxt sanıb çağladım.
Həsrət çəkib gecə gündüz ağladım.
Əli üzüb qəlb qapımı bağladım.
Heç bilmirəm niyə sevdim mən səni!?

Bircə kəlmə şirin sözün olmadı.
Günel üçün qəlbin eşqlə dolmadı.
Daha sənə mənim sözüm qalmadı..
Heç bilmirəm niyə sevdim mən səni!?

## ETİBAR ETDİYİM QALMAYIB ARTIQ

Açılmadı eynim, gileyli oldum.
Həyatı gördükcə kövrəldim, doldum.
Candərdi yaşayıb içimdən soldum.
Etibar etdiyim qalmayıb artıq.

Düşünüb xəyala hərdən dalıram.
Keçmişdə olanı yada salıram.
Çarəsiz olmuşam dinməz qalıram.
Etibar etdiyim qalmayıb artıq.

Dərdimə təsəlli verənim yoxdu.
Yanındayam sözün deyənim yoxdu.
Mənəvi dəstək də edənim yoxdu.
Etibar etdiyim qalmayıb artıq.

Günelin inamı çoxdan itibdi.
Qalanlar biganə yaxşı gedibdi.
Çoxu ömrü-günü talan edibdi.
Etibar etdiyim qalmayıb artıq.

## ADAM TAPMIRAM

Əlimi dünyadan üzürəm hərdən.
Dərdimi biləcək adam tapmıram.
Əl açıb Allaha küsürəm yerdən.
Mənimçün öləcək adam tapmıram.

Haqsızlar yanında dura bilmirəm.
Səvhləri üzlərə vura bilmirəm
Yalandan ünsiyyət qura bilmirəm.
Danışıb güləcək adam tapmıram.

Şərəfsiz insanlar üzdə gəzirlər.
Nadanlıq edənlər düzdə gəzirlər
Sadiq dost olmağı sözdə gəzirlər.
Sirrimi böləcək adam tapmıram.

Yaltaqlar azalar olmasa pulum.
Kimlərə lazımdı quruca çulum.
Qarşımı kəsiblər bağlanıb yolum.
İnsafa gələcək adam tapmıram.

Güneləm qəlblərə dəyməsin sözüm.
Çalışıb görürəm işimi özüm.
Kövrəlmiş halımda dolanda gözüm.
Gözümü siləcək adam tapmıram.

## TÖHMƏTİN VAR HƏYATDA

Acgözlüklə var-dövləti yığanlar.
Pul üstündə bir-birini qıranlar.
Qohum-qardaş canlarına qıyanlar.
Nəyə lazım dövlətin var həyatda?

Bu həyatda sağlam canın olmasa
Durub gəzsən heç taqətin qalmasa
Tanrı səndən görən gözü almasa.
Zəlil canla sərvətin var həyatda.

Cahil adam qınağısan dünyanın.
Pul hərisi qonağısan dünyanın.
Varlı-hallı sınağısan dünyanın.
Qıymaz kimi şöhrətin var həyatda.

Bu fələyin oyununa qanma sən.
Xərclədiyin pullarına yanma sən.
Pulun varsa ömrün çoxdu sanma sən.
Bircə ömür möhlətin var həyatda.

Günel deyər çalış rüşvət alma sən.
Ömrü boyu gəl tamahkar olma sən.
Bu millətin yadında pis qalma sən.
Ölüb getsən töhmətin var həyatda.

## BİLMİRƏM

Allah bu nə hisdi yaşayıram mən.
Qəlbimdə bir insan daşıyıram mən.
Silməyə köksümü qaşıyıram mən.
Unuda bilmirəm silə bilmirəm.

İllərin həsrəti sarsıdıb məni.
Dərdlərim saçıma salıbdı dəni.
Ömrümün çəkilmir dumanı, çəni
Anlaya bilmirəm, bilə bilmirəm.

Vaxtsız ayrılığın sonuma çıxdı.
Uçurub üstümə evimi yıxdı.
Həsrətin gizlicə qəlbimi sıxdı.
Fikirdən özümə gələ bilmirəm.

Demirəm qismətim, bəxtim belədi.
Başıma nə gəldi Allah elədi.
Bizə ayrılığı kimlər dilədi?
Sən nə diləyirsən dilə bilmirəm.

Keçmişə qayıdıb nəzər salanda.
Köhnə şəkilləri ələ alanda
kədərli gözlərim yaşla dolanda.
Qarışır aylarım ilə bilmirəm.

## PİSLİYİN YARASI SAĞALA BİLMƏZ

Adamın bəlaya düçar olmağın
Mən yaxşı bilirəm necə solmağın.
Ürəkdən təssəlli verən bəndənin.
Səvabı böyükdür könlü almağın.

İnsanlar pisliyin toxumun əkir.
Axırda günahın cəzasın çəkir.
İmanlı İlahi haqqa sığınır.
İmansız üstünə cəhənnəm çökür.

İnsanın pisliyi dönər özünə.
Səvhlərə tutular irad düzünə
Kim necə dərk edib başa düşsə də
Diqqət etməlidir yalnış sözünə.

Pisliyin yarası sağala bilməz.
Pisəməlli insan ucala bilməz.
Ev-eşik yıxanın ocağı sönər.
Xoş günün havasın qaytara bilməz.

## SANIRAM

Bir insana dayaq olmaq köməkdir
Mərd insanın ruzisi də çərəkdir.
İblis olmaq, axı kimə gərəkdir.
Mələk kimi insan çoxdu sanıram.

İnsanlara özüm qədər yanıram.
Dərdi-səri çox olanı anıram.
Aldanıram sözlərinə qanıran.
Heç elə bil dərdim yoxdu sanıram.

İnsanlıq var ruhu gözəl bədəndə
Ləyaqətli düz yolunu gedəndə
Yerli-yersiz şit hərəkət edəndə.
Bu canıma batan oxdu sanıram.

Bükülsədə şux qamətim, dizlərim,
Danışarsa haqqı deyər sözlərim,
Gördüyünə tamah salmaz gözlərim.
Mən özümü gözüm toxdu sanıram.

## GETMƏYƏ

Ötüb keçən həyat geriyə dönməz.
Adamda yaşamaq eşqi bitməyə.
Əcəl tez özünü çatdırar dözməz,
Can alsa da gəncləri alıb getməyə.

Arzudan birinə çatıb yetməyən,
Yaxşı işdən qeyri yola getməyən,
Çalışıb həyatda pislik etməyən,
Xeyirxah insanlar solub getməyə.

Yaxşılıq edəsən başa düşənə,.
Düşəndə yarıya o da işinə.
Üz görsə salmaya səni dişinə.
Ömürdən ömrünü çalıb getməyə.

Həyatda tufansız əsə küləyin.
Ev yıxıb dağıdan olsa kələyin.
Cırnayıb qəzəbi tutsa fələyin.
Adamı zülümə salıb getməyə!

## BİLMƏZ

Dayim tərif edib öyən özünü.
Danışmaz heç vaxt sözün düzünü.
Bir kəlmə deyərsən tökər gözünü.
Ağzını açarsa sözünü bilməz.

Özünü hər işdə ortaya atar.
Söz-söhbət yaradıb aranı qatar.
Onda-bunda nöqsan axtarıb tapar.
Yalandan danışar düzünü bilməz.

Yaxşılığa desən qədrini bilməz.
İpə, sapa yatıb bir yola gəlməz.
Qəlbində çəkdiyi kinini silməz.
Adamı yandıran közünü bilməz.

Haqsız olduğunu boynuna almaz.
Yöndəmsiz canını dəyərdən salmaz.
Abırsız olmasa ayaqda qalmaz.
Astara yararsız bezini bilməz.

Günel bələsinə başını qoşma.
Hərdən əsəbləşib danışıb coşma.
Sən gözlə özünü həddini aşma.
Onsuzda beləsi həddini bilməz.

Hörmətli şairimiz, AYB-nin Beyləqan bölməsinin katibi Raquf Budaqlıya yazdığım şeir.

## YAZDIM

Diqqətlə oxusan şeiri əmi
Həyatda çəkdiyim kədəri yazdım.
Baxsan solan üzə görərsən qəmi.
Taleyi, qisməti, qəhəri yazdım.

İnan ki, heç nədən açılmır ürək.
Bünövrə laxlayıb sarsılıb dirək.
Mənəvi dostlara lap çoxdu gərək.
Könlümdən keçəni ötəri yazdım.

Unuda bilmirəm yaxın keçmişi.
Artıq tanıyıram yolun seçmişi.
Həyatın düz yolun əyri getmişi
Həddini aşanı betəri yazdım.

Ömrümü, günümü zindan eyləyən.
Açanda ağzımı peşman eyləyən,
Haqsızlar yanımda cövlan eyləyən.
Gec, ya tez dünyadan gedəri yazdım.

İçimdə çəkdiyim dərdə dözəndə,
Pis bəxtin içində xoş gün gəzəndə,
Allahın verdiyi candan bezəndə,
Ömrümdən boş gedən hədəri yazdım.

## VƏTƏNƏ DÖNMƏYİN ARTIQ VAXTIDI

Yurdun tapdanmaq düşdü payına.
Çağırdı olmadı gələn hayına.
Töküldü günahsız insan qanları.
Nifrətim böyükdü düşmən soyuna.

Qızıldan qiymətli daşımız üstün.
Düşmənlər kəsdilər başımız üstün.
Qovub çıxatdılar yurd-yuvamızdan,
Vətəndə qoydular erməni büstün.

Analar övladın anıb ağlayır.
Göz yaşları dönüb selə çağlayır.
Elə bil canlardan can qopub gedib
Şəhidlər öldükdə ürək dağlayır.

Səfalı Qarabağ, axı dardadı.
İgid oğul,qızlar görən hardadı?
Şəhidlərin ruhu səsləyir bizi.
Vətənə dönməyin artıq vaxtıdı.!

Şəhidlərin qanın biz almalıyıq
Düşmənin başına daş salmalıyıq.
Bütün gücümüzü səfərbər edib.
Qələbə cəngini tez çalmalıyıq.!

## NƏFƏSİM OL

Bilmirəm mən sənsiz necə dözürəm?.
Torpağın üstündə necə gəzirəm?
Nəfəsim daralır təkcə bezirəm.
Gəl mənə can verən tək nəfəsim ol!

Qəlbimin içində yerin dərindi
Eşqimin bağçası yayda sərindi.
Danışırsan dilin necə şiridi?
Gəl bağa səs salan şirin səsim ol!

Üzündə qüsur yox özün də gözəl,
Qayğılı baxışın gözün də gözəl,
Abırın, ismətin sözün də gözəl,
İstərəm sirdaşım, doğma kəsim ol.!

Mən elə sanıram əbədi varsan.
Mənimçün həyatda bənzərsiz yarsan.
Zirvədə əlçatmaz, əriməz qarsan.
Heç nə istəmərəm bir sən bəsim ol.!

## AĞAM, YA HÜSEYN!

Cihad etmisən haqqın yolunda,
Canın fəda edən Ağam, Ya Hüseyn!
İslamın uğrunda şəhid olmusan,
Canın fəda edən Ağam, Ya Hüseyn!

Müsəlman dünyası səni yad edir.
Adın dillərində hey fəryad edir.
Başına gəldiyi müsübət nədir?
Canın fəda edən Ağam, Ya Hüseyn!

Məhərrəm ayında matəm saxlayır,
İnsanlar məsciddə gedib ağlayır.
Sinə vurub başa qara bağlayır,
Canın fəda edən Ağam, Ya Hüseyn!

Öləndə olmadı çatan dadına,
İllərdi möminlər salır yadına.
Qurban olum sənin şəhid adına,
Canın fəda edən Ağam, Ya Hüseyn!

Kərbəla çölündə axıbdı qanın.
Allahın yolunda gedibdi canın.
Əbədi cənnətdir sənin məkanın!
Canın fəda edən Ağam Ya Hüseyn!

# TƏK İSTƏYİM İNSANLAR SAĞLAM YAŞASIN ÖMRÜ

Allah heç bir bəndəni yerdə xəstə etməsin.
Yoxsa dərdinə dərman, əzab çəkib bitməsin.
Zülüm-zillət içində gözün yumub getməsin.
Tək istəyim insanlar sağlam yaşasın ömrü!.

Xəstə canlar ağrıya güc gələ bilsin gərək.
Tab gətirib acıya sinə də gərsin gərək
Ötüb-keçən həyatda ağrıda görsün gərək
Tək istəyim insanlar sağlam yaşasın ömrü!.

Tanrıdan diləyirəm xəstələr tapsın şəfa
Çarəsiz xəstəlikdən, heç kim çəkməsin cəfa
Hər zaman Allah versin dərdi-bəlaya dəva
Tək istəyim insanlar sağlam yaşasın ömrü!..

## QALİB GƏLSİN İNSANLIQ

Adam gərək sayılsın!
Baxsın ötən zamana
Tez yuxudan ayılsın
Baş qoşmasın yamana.
Dursun gözdə imanı
Dilə gəlsin insanlıq.
Nəyə çatır gümanı
Fikrə getsin bir anlıq.
Tutub sözün ucundan
Çox dərinə getməsin!
Günahsızın suçundan
İstifadə etməsin
Mütləq elə yetməli
Hər dediyi yerinə
İşi rəvan getməli
Dönüb baxmaz birinə
Bəzən öyüb özlərin
Əməlisaleh sanırlar.
Yalan olan sözlərin
Çox hallarda danırlar.
Nə qədər ki, gec deyil
Çatın dada, köməyə

Yaxşı əməl heç deyil
Sözdə özün öyməyə
Gərək yoxdu biləsiz.
Dəyər verib hər kəsə
Qəlbdən kini siləsiz!
Möhtac olan bir kəsə
Siz biganə olmayın!
Dursun gözdə insanlıq
Yaxşı işdən qalmayın!.
Lazım deyil yamanlıq
Gözəl edin dünyanı!
Qalib gəlsin insanlıq
Fəth eləyin hər yanı....

**OLA**

Ömrü elə yaşayasan
Həyatın çağlayan ola
Sözü elə deməyəsən
Bir ürək dağlayan ola.
Öləndə elə öləsən
Gözünü bağlayan ola.
Həyatda elə olasan
Ölsən yas saxlayan ola.
Dalınca bir dəfə deyil
İllərlə ağlayan ola.
Yasını qırxacan deyil.
Bir ömür saxlayan ola.

## SANMASIN

Adam hər önə çıxanı
Yaxşı insandı sanmasın
Qulluq edərək baxanı
Şirin sözünə qanmasın.
Üzdə yandırıb yaxanı
Od-alov sanıb yanmasın.
Zamanla canın sıxanı
Desin, hər kəsə danmasın.
Ələ verməsin yaxanı.
Birdə eləsin anmasın
Şeytan maskası taxanı
Görüb mələktək donmasın.
Hərdən şimşəktək çaxanı.
Yağacaq yağış sanmasın.
Üstə qır-qızıl taxanı
İçi də qızıl sanmasın.
Hər kəs önünə çıxanı
Tələsik evə almasın.
Diliylə evlər yıxanı
Adamtək saya salmasın.

## NECƏ YAZIM AXI, XOŞ GÜNDƏN?

Yazdığım şeirləri açıb oxuyan.
Hər sözümdən dərdi duyub anlayan.
Deyəcək bəxtindən çox gileylisən.
Şeirdə kədərə sən meyillisən.
Sən bir heç olmasa xoşbəxt gündən yaz.
Qəlbində sərt qışa gəlsin bahar, yaz.
Cavan yaşında sən, niyə küsmüsən?
Sözün cərgəsinə dərdi düzmüsən.
Həyatında zülmün, heç bitmədimi?
Tərk edib dərdlərin heç getmədimi?
Ürəkdən sevinib səndə güləsən
Bəlkə xoş gün görmək nədir biləsən?
Kədəri qoyasan dalda qaçasan.
Yaddaşında bir yeni yer də açasan?
Axı qalib gəlsən qəmə, kədərə
Boş yerə həyatın getməz hədərə.
Yaşayıb bəxtəvər dövran sürərsən.
Dayim xoşbəxt keçən günlər görərsən.
Deyirəm: mən yazıq qəmdən, kədərdən
Xoşumamı gəlir öləm qəhərdən.
Tanrı verən ömrüm,günüm belədi.
Neyləyim ki, qəmə düçar elədi.
Yaşayıb ömrümü yarı etmişəm.

Yaxşıyla, pislə mən yolda getmişəm.
Pis günümdə yada salanları da...
Tez başımın üstün alanları da...
Görmüşəm yaxşılıq itirəni də
İşinə yetməsəm bitirəni də....
Bəzən tanımışam öyünən kəsi.
Mən dara düşəndə söyünən kəsi...
Hərdən də işlərim yaxşı getməyib.
Düz yolumdan məni heç nə etməyib.
Çətin yolda başı uca saxladım.
Üzüağ bu yaşa çatıb haxladım.
Həyatda pis günlər mənə ox oldu.
Sevincli günlər az, kədər çox oldu.
Dəydi mənə zərbə-zərbə dalınca.
Təklikdə yaramla tənha qalınca.
Mən gileylənməyə bilməzdim bəxtdən.
Coşub söylənməyə bilməzdim dərtdən.
Əsl xoşbəxtlik nədir, axı görmədim.
Xoşbəxt günün dadı necə bilmədim.
Necə yazım indi deyin xoş gündən.
Həyatımda mənə çatmaz yox gündən.
Məsəl var ki, aşıq gördüyün çalar.
Ağılda da baxıb gördüyün qalar.
Gördüyüm nədirsə, yazdığım budu.

Zamanla yağışlar çatları yudu.
Yenə izi qaldı yuyub örtsə də.
O izin üstünə leysan töksə də...
Ölənə qədər də qəbdə yaradı.
Elə insanlar var üzü qaradı.
Həyatda ömrünü sənə dar edər.
Çarəsiz can baxar elə ar edər.
Yaxşı xoş gün varmı zövq də alım mən.
Həyatda yadıma nəyi salım mən,?
Bəzən daha dərin fikrə dalanda.
Deyirəm insanlar niyə tələsir?.
Nədən ömrü boyu işlə əlləşir.?
Dolanmaq istəsən işin yolu çox.
Nə etsən dünyada qalmaq yerin yox.
Dayim bəsləsək də ümüd sabaha.
Sonunda gedəcək hər kəs torpağa.
Ölənlər üstündə məzar daşları.
Kiminsə daş üstə axan yaşları.
Belə vəfasızdı, zalımdı dünya.
Acı gerçəklə ölüm, qalımdı dünya.
Həyatda hər ömrün sonu ölümsə.
Yaşadığın həyat əzab, zülümsə.
Necə yazım axı, deyin xoş gündən.?
Axırı olmayan bəlli boş gündən.

Qələmə aldığım aşağıdakı yazım atamgilin ailəsində mən uşaq olarkən baş vermiş real hadisələrdir. Sonradan atamla, anamın mənə danışması nəticəsində yazıya almağı düşündüm və bir kiçik poema şəklində sizlərə təqdim edirəm. Bütün hadisələr gerçəkdir, heç bir uydurma xəyal məhsulu yoxdur...

## YARIM QALAN ÖMRÜ YENİDƏN YAŞADAN CAN

Bir zamanlar yerdə ayaq izləri.
Yox indi geridə qoyub bizləri.
Həyatda insanın ola bir bəxti.
Sınaqdan çıxmağa edə bir cəhdi.
Bu fani dünyanı duyasan gərək.
Taleyin hökmünə uyasan gərək.
Həyatda bəxti pis olanlar da var.
Açmamış qönçədə solanlar da var.
Sizə söhbət açım bəxtsiz gözəldən.
Bəxti gətirmədi onun əzəldən.
Ötən əsr dünyaya bir qız göz açdı.
Elə bil həyatda yeni gül açdı.
Rəfiqə qoydular onun adını.
Bir siz də tanıyın gözəl qadını.
Onun gözəlliyi işıq saçardı.
Sözüylə ürəyə yollar açardı.

Adıtək hər kəsə Rəfiqəydi o.
Gözəl xasiyyətlə bir dənəydi o.
El-oba xətrini çox istəyərdi.
Qısaca adına "Rəf" söyləyərdi.
Ağıl, kamalına söz ola bilməz.
Bu yerdə ona tay qız ola bilməz.
Abırı, həyası vardı isməti.
Tanrı pay verəndə ona qisməti.
Qismətdə bol verib içində qəhər.
Həyatda çox olub çəkilən kədər.
Günlərin bir günü ilk kədər gəlib.
Yaman sərt gəlibdi çox betər gəlib.
Yerdə xəstə halda qardaşı yatıb.
Yüksək hərarətdən qan tərə batıb.
Qızdırma alıbdı onun hər yanın.
Qəfil ölüm gəlib alıb tez canın.
Altı yaşlı məsum, bəxtsiz qardaşı
Köçüb bu dünyadan kiçik sirdaşı.
Sınaqdı körpənin qəfil ölümü.
Çarəsiz anaya verib zülümü.
Dözməyib günlərlə ana ağlayıb.
Başında qara şal yasın saxlayıb.
Rəfiqə də buna yaman üzülüb.
Göz yaşları dönüb selə süzülüb.

Fələyin birinci oyunuydu bu.
Cəllad vurduğu ilk boyunuydu bu.
Günlər keçir yara təzə köhnəlmir.
Heç anası yazıq gülmür, düzəlmir.
Ağlayır gözündən qurumur yaşı.
Allah istəyir ki, qarışsın başı.
Ona yenə verir oğul övladı.
Ona "Əvəz" olur uşağın adı.
Ananın fikri, zikri öləndə qalır.
Pərişan qəlbinə dərdi iz salır.
Sevinmir körpənin o gəlişinə.
Yaxın da durmayır bir gülüşünə.
Yazıq Rəfiqə də uşağa baxar.
Baxdıqca göz yaşı yanaqdan axar.
Yükü ağır olar,işi çox çətin.
Əziyyət çəksə də özü çox mətin.
Qardaşı saxlayar yazıq neyləsin.
Anası xəstədir kimə söyləsin.
Bir yandan ananın halı pisləşər.
Ağrısı çoxalar iş çətinləşər.
O xəstə anaya baxar qardaşa.
Dərdini söyləməz bircə sirdaşa.
Rəfiqə malları təkcə raxlayar.
Üstəlik evləri təmiz saxlayar.

Hərdən işlər ona ağırlıq edər.
Vaxtında inəyi sağmağa gedər.
Bəzən də yorulub özün itirər.
Yazıq qız vaxtında işi bitirər.
Görənlərin ona yazığı gələr.
Hələ gələcəkdi başına nələr.
Bir gün də inəyi sağdığı zaman
İnək vurdu ona təpiyi yaman.
Təpik elə dəydi, canın ağrıtdı.
Dözsə də zərbəyə onu sarsıtdı.
İnək Rəfiqənin cumub üstünə.
Yenə vurub onu durdu qəstinə.
Huşu gedib yerdə yıxıldı qaldı.
O ağrı-acıdan qıvrıldı qaldı.
Rəfiqənin halı ürəklər oydu.
Düzgün diaqnozu həkimlər qoydu.
Qaraciyər parça-parça olmuşdu.
İç-çalatı çoxlu qanla dolmuşdu.
Həkim baxıb dedi: doğrusun, düzün.
Aparıb bu qızdan əlləri üzün.
Onun yaşaması mümkün olmadı.
Bu həyatdan köçdü getdi qalmadı.
Əbədi olaraq ömür-gün bitdi
Cavan yaşda öldü qəbrə tez getdi.

Gözəl Rəfiqənin ölümü dəhşət
Talehsiz ananın zülümü vəhşət.
Dərtdən cırıb üzün yolur başını.
Balanın yerinə öpür daşını.
Həyat hökm elədi kədər sərt gəldi.
Zamanla üstünə yenə dərt gəldi.
Qəm-kədər bununla evdən bitmədi.
Əzrayıl əl çəkib razı getmədi.
Bu dəfə ananın çökdü canına.
O iki balanın getdi yanına.
Kövrək ürəkləri dağlayıb getdi.
Ananın balaya həsrəti bitdi.
Uşaqlar ağlayıb hay-haray saldı.
Hər tərəfi fəryad səsləri aldı.
Aylar ötdü bir il tez gəlib keçdi.
Ata özü üçün bir qadın seçdi.
Qadın uşaqlara baxmaq istəmir
Yetim uşaqlarla qalmaq istəmir.
Ata evdən çıxıb gedir evlənir.
Övladlar nə dinir, nə də dillənir.
Ailə dağılıb həyata küsür.
Uşaqlar hərəsi bir yerə düşür.
Böyük qız uşaqla evdə tək qalır.
Çəkdiyi dərdini içinə salır.

Asan deyil doğma üç can itirmək.
Bütün olanlara dözüm gətirmək.
Çox keçmir onun da başı pozulur.
Düz danışılmır söz, söhbət yozulur.
Xəstəlik yazığı salır zamansız.
Əzrayıl yenə də olur amansız.
Dəyişir dünyasın Safura bacı
Allah bəs deyilmi bunlara acı?
Yetsin artıq kədər, olmaz bu qədər.!
Neçə nakam canlar gedibdi hədər.!
Yerdə qalan yeddi bacı və qardaş,
Evlənib oldular birinə yoldaş.
Onlar ömrü bitən cavan canları.
Heç unutmadılar çətin anları.
Atam da bir vaxtlar orda doğulub.
Həyatın verdiyi qəmdə boğulub.
Tutunub həyata, dözüb acıya.
İllərdi həsrətdi ana-bacıya.
Anasız, bacısız çöhrəsi solub.
Evlənib iki də övladı olub
Atama təsəlli qardaşım və mən.
Deyərmiş payım var, nə istərəm mən.
Saxlayırdı bizi halal zəhmətlə
Rəssamtək tanınıb böyük hörmətlə

Anam da atama dayaq olubdu.
Çətin günlərdə ayıq-sayıq olubdu.
Belə ötüb illər, keçib zamanlar.
Anam da həyata edib gümanlar.
Bir gün də anamın özü bilmədən.
Bir uşaq gözləyir heç istəmədən.
Məsləhət edir ki, həkimə getsin.
İki uşaq bəsdi, bunu rədd etsin.
Atam razı olur könülsüz ona.
Həkimə aparır iş çatsın sona.
Qismətə baxın ki, həkim də olmur.
Atam həkim gəzib özün heç yormur.
Anama deyir, gəl, qəsd etmə cana.
Qoy olsun dözəcəm bütün Cəfana.
Anam razı olmur uşaq istəmir.
Vaxt bayrama düşür həkim işləmir.
Həmin gecə anam yatıb yuxuda.
Tək bir ağ göyərçin görür qapıda.
Göyərçin dil açıb birdən danışır.
Anamın yuxuda halı qarışır.
Göyərçin söyləyir həkimə getmə.
Bir qızın olacaq ona qəsd etmə.
Səksənib ayılır yuxudan anam.
Gördüyü yuxuya yox onda inam.

Sabah axşam anam yenə yuxuda.
Həmin göyərçini görür qapıda.
Qanad çalıb cırmaq atır üzünə.
Anamın toz-torpaq dolur gözünə.
Göyərçin Rəfiqə bibim simada.
Kövrək, titrək səsli imada.
Deyir: bu uşağa dəymə qalacaq.
Gözəl mələk kimi qızın olacaq.
Gəl bir dəfə qarşı çıxma arzuma.
Rəfiqə adını qoy sən quzuma.
Saxla mələyimi at bu addımı.
Ömür boyu mənim yaşat adımı.
Hər dəfə bu sözü deyib yox olur.
Anamın gördüyü yuxu çox olur.
O qorxub yuxuda durub ağlayır.
Uşağı bibimə xatir saxlayır.
Doqquz aylıq bir vaxt keçir aradan.
Gözəl bir qız payı verir Yaradan.
Mələktək siması necə gözəldi.
Ailədə bacım bizə özəldi.
Bacım Rəfiqənin adın daşıyır.
Bu həyatı ona səbəb yaşayır.
Danışanda sakit tərzli sözləri.
Bibimə bənzəyir eyni gözləri

Onun hər ağzından çıxan kəlməsi.
Yanağında gülüşü, batan qəmzəsi.
Bir insan yenidən yaranıb Allah.!
Sanki bibim özü dayanıb Allah!
O özü yaşamır bir can yaşadır.
Tək bir bədəndə canlar qoşadır.
Allah ömür versin torpağı sanı.
Verdiyi ömürdə qorusun canı.
Hərdən atam çəkən rəsmə baxıram.
İçimdə qəhəri boğub sıxıram.
Şəkildə hüzünlü, bibim qəmlidi.
Sanki şəkildə də gözü nəmlidi.
Bibican yarımçıq qalan ömründə.
Canın var rahat ol, artıq qəbrində.
Allah cavanlarda qıymasın cana.
Verməsin az ömrü bir də cahana
Onsuzda bu dünya yalandı, boşdu.
İnsanlara xoşbəxt yaşamaq xoşdu.
Çoxdu bu həyatın zalım oyunu.
Bir nəsil tanısın gərək soyunu.
İnsanı məhv edib can alan alır.
Dünyadan köçən çox, qalansa qalır.
Ölənlərə rəhmət olsun söylərəm
Qalanlara sağlam ömür dilərəm.

Bəzən o illərə dönmək istərəm.
Doğma insanları görmək istərəm.
Heyf ki, mümkün deyil, xəyal qururam.
Ötən o illəri anıb dururam.
Necə də çətindir həyat yolları.
Bağlıdır insanın əli-qolları.
Dünyanın işinə nəzər salanda.
Verdiyi dərdlərə aciz qalanda
Pis keçən günləri anıb ağlaram.
Ölən yaxınlara yanıb ağlaram.
Təsəlli tapıram dayim bacımda.
Yaxşı günün görsəm keçir acım da
Gözümün önündə qalıb ötəri.
Allahım verməsin daha betəri.
İnsanlar taleyin hökmüylə yaşar.
Kim bilir nə qədər ömrüylə yaşar
Nə yazıq ki, həyatın qanunu budur.
Fələyin qurduğu oyunu budur.
Məzarlar bir evdi hamı girəcək.
Ölüm bir yuxudu hamı görəcək.

## VALİDEYN ÖVLAD MÜNASİBƏTLƏRİ.

Əvvala danışım ailədən bir az
Valideyn övlada verməyim yer az.
Həyata müxtəlif baxışlar olur.
Adamın başına qaxışlar olur.
Valideyn pisin övlad bildirər.
Övladın pis işin valideyn silər
Valideynlər var ki, uşağa baxmaz.
Atar küçələrə heç sahib çıxmaz.
Hər ata, anaya şamil  olunmur.
Övlad böyütməklə kamil olunmur.
Birinci valideyn yaxşı olmalı
Övladın qeydinə daim qalmalı.
Yeri gəlsə onun dostu olmalı.
Düşməndən qoruyan postu olmalı.
Çox zaman övlada baxır analar.
Ömrünü yandırır yaxır analar.
Qazanıb gətirir pulu atalar.
İstəyir övladlar kama çatalar.
Valideyn çəkməli hər əziyyəti
Borcudur saxlasın övlad hörmətin.
Yaxşı övlad dinməz heç deyişməyər
Bir az boyu çıxdı çox dəyişməyər.

Ataya, anaya baxar özünə.
Danışsa sərhəddi qoyar sözünə.
Ata ağac kökü, ana torpaqdır.
Oğul qol-budaqdır, qızsa yarpaqdır.
Balalar Allahın bir töhvəsidir
Oğul, qız fərqi yox can meyvəsidir.
Evdə qalan oğul yurda çıraqdı.
Qızsa köçəridi evdə qonaqdı.
Cənnət qoxusudur övlad qoxusu.
Anlayıb hiss edə bilməz çoxusu.
Övladlar evlərdə yanan işıqdır.
Oğul arxadırsa,qız yaraşıqdır.
Ata olmaq asan atalıq çətin.
Analar atadan dözümlü, mətin.
Fərsiz övlad əldə artıq barmaqdır.
Saxlasan eybəcər qalan yanmaqdır.
Övlad valideynin həyat sevinci.
Dünyada onunçün sanki bir inci.

* * * * * * *

Böyüdüb övladın əziyyət çəkən.
Çətinə düşəndə göz yaşı tökən.
Yeməyib övladın yedirən ana.
Əyninə geyməyib geydirən ana.
Analıq haqqını ödəyib hər an.

Övladın gözündən qoymayıb bir an.
Böyüdüb ev-eşik eləyib onu.
Qocalıb heç yaxşı olmayıb sonu.
Oğul deyib canın verdiyi bala.
Ananı bəyənməz salar nə hala.
Qocalar evinə aparıb atar.
Etdiyi səhviylə günaha batar.
Gözü yaşlı qoyar yazı ananı.
Evində saxlayar gözəl cananı.
Ananın duasın almayan oğul.
Heç zaman yadına salmayan oğul.
Necə rahat gəzir yaşayır belə.?
Nə deyir görəsən millətə, elə.?
Nazını çəkərək səni saxlayan.
Hər gecə üstünü örtüb yoxlayan.
Ananın qədrini beləmi bildin?
Bir anda unudub nə üçün sildin.?
Ar olsun sənintək oğula bala.
Tökülə dünyada səndən çox ola.!
Heç bir ana gərək bilməz özünə.
İstəyər övladı baxsın üzünə.

* * * * * * *

Ata var oğlu yox, üç-dörd qızı var.
Ömrünün çətini qışı, yazı var.

Yüz oğul işidir qızların işi.
Onların gördüyün etməz nər kişi
Atanın, ananın qədrini bilir.
Qoymayır ağlasın, göz yaşın silir.
Valideyn ağlayır xəstə canını.
Qızların üçü də kəsər yanını.
Biri dırnaq tutub ayağın yuyar.
Biri dərman verib ağrısın duyar.
O biri ağzına yemək yedirər
Gül kimi saxlayıb paltar geydirər.
Həyatdan əl üzmüş ata dillənər.
Üz tutar qızlara baxıb pirlənər.
Deyər oğlum yoxdu fikir edirdim.
Əlim uzanıqlı dərdli gedirdim.
Tabutu götürən kimlər olacaq.
Yurdumda oğul yox,  qızmı qalacaq?
Mən səhv etdiyimi indi anladım.
Özümü qınadım yaman danladım.
Başımız üstünü alan sizsiniz.
Gecələr növbəylə qalan sizsiniz.
Halımız dəyişsə qəlbi dağlanan.
Bizik qız əlində gültək saxlanan.
Şərt deyil mən öləm oğul əlində
Çiynində gedərəm xalqın, elin də...

Bilirəm arxamca ata deyənlər.
Var ağlayıb məni qara geyənlər.
Qızlar eşidəndə gözləri dolur.
Atanın zülmünə üzləri solur.
Ana da kövrəlib başını əyər.
Bu söz cana dolub qəlbinə dəyər.
Bax belə qızlar var canlara dəyən.
Etməz bu işləri oğulam deyən.

* * * * * * *

Bəlkə də oğul var qızlardan fərqli.
Pis günlər görübdü ürəyi dərdli.
Onu ata, ana küçəyə atıb.
Yəqin pul əvəzi birinə satıb.
Oğul nifrət edər o valideynə.
Haqqı var danışıb özü deyinə.
Dünyaya gətirib küçəyə atan.
Övladın ahıyla günaha batan.
Dağıdıb evini özgəyə qaçar.
Gələcək həyata yelkənin açar.
Deməz gözü yaşlı övladım hanı.
Qalıbmı həyatda necədi canı?
Günləri xoş keçsin bəsidir onun.
Özgələr ən əziz kəsidir onun.
Belə anaların ürəyi daşdır.

Xoşbəxt günlərinin axırı boşdur.
Qara qaş-gözünə vurulan adam.
Bir gün də deyəcək yaxşı yol qadam.
Qalanda ortada çarəsiz qadın.
Çörəkçün baxacaq əlinə yadın.
Düşünər balamı axtarıb tapsam
Günahkar qismində üzünə baxsam.
Üstümə yüyürər çoxlu ağlayar.
Bəlkə bağışlayar məni saxlayar.
Sorağın alanda oğlunun ana.
Bir istilik gələr bədənə cana.
Gedər həmin evə qapını döyər.
Qapını açan kəs, kimsən sən dəyər.
Başını qaldırıb yuxarı baxar.
Kədərli gözündən yaşları axar.
Ucaboylu oğlu önündə durar.
Ana iki əllə başına vurar.
Mən sənin ananam tanıdın məni!!!
Çarəsiz qalmışam atmışam səni!!
Səhvi mən etmişəm ağlım olmayıb.
Bağışla bilim ki, dərdim qalmayıb.!!!
Oğlan geri dönüb içəri girər.
Bir qadın səsləyər çölə gətirər.
Budur oğul deyib məni bəsləyən.

Saxlayıb yekəldən hey əzizləyən.
Qeydimə qalandı əsl doğma olan.
Yatmayıb gecələr yuxusuz qalan.
Acından ölsə də məni atmayan.
Bu qadın canımdır doğma anamdır.
Həyatda hər zaman mənə yanandır.
-De görüm sən kimsən hardan gəlmisən?
Neçə qış, yaz mənsiz deyib gülmüsən.
Analıq budurmu sənin gözündə.?
Nə fayda görsən də günah özündə.
Ana kor-peşiman geriyə dönər.
Həyatı yenidən zülmətə çönər.
Gözünün önündə keçmiş canlanar.
Qocalmış can səhvin odunda yanar.
Valideyn bu cür olmaq istəməz.
Təkcə gözü yaşlı qalmaq istəməz.

* * * * * * *

Elə atalar var çəkər zəhməti.
Əziyyət içində görər  möhnəti.
Çəkilməz dumanlar onun başından.
Çörəyi zülümlə çıxar daşından.
Ailəsi üçün verər illərin.
Ömürdən xərcləyər ötən günlərin.
Qocalıb dünyadan getsə də belə.

Hər kəsi yerbəyer etsə də belə
Bir könül qırmayıb qəlbə dəyməyib.
Başın uca tutub qəddin əyməyib.
Bax ona görə də urvatlı olar.
Dəyərli insantək qəlblərə dolar.

* * * * * * *

İndi söhbət gəlib pislərə çatdı
Sanmayın atasız ev-eşik batdı.
Ata da var qaçar uzaqlara gedər.
Ailəsin atar nankorluq edər.
Qadın uşaqları saxlayar çətin.
Həyatda qürurlu özü də mətin.
Kişi nə pul verər, nə də şoruşar.
Uşaqlar yoxluqla belə barışar.
Xarici ölkəyə ata gedibdi.
Pul qazanmaq üçün bunu edibdi.
Bir müddət işləyər pulunu alar.
Getdikcə meylini bu yerə salar.
Heç zaman geriyə dönüb qayıtmaz.
Özünü yuxudan heç vaxt oyatmaz.
Beləcə ayları illəri keçər.
Qurşanar içkiyə elə hey içər.
İşindən çıxardıb atarlar çölə.
Pulu yox acından az qalır ölə.

Düşür küçələrə əsir günündə.
Cır-cındır içində yesir günündə.
Orda-burda yatar ölümcül halda.
Təsadüfən tapar yerlisi yolda.
Aparıb evinə yemək yedirər.
Çimdirib əyninə paltar geydirər.
Sənətin düzəldib biletin alar.
Doğma vətəninə yola da salar.
Qayıdıb vətənə gələndə ata.
Sağalmaz xəstədir biləndə ata.
Evinə dönməyə üzü də yoxdu.
Etdiyi səhvləri qəlbində oxdu.
Atanın yanına övladlar gələr.
Halını öyrənib, dərdini bilər.
Hər biri sakitcə dayanıb durar.
Çarəsiz qalaraq boynunu burar.
Ata heç onlara axıb-baxmayıb.
Amma qəlbdən sevgi küsüb çıxmayıb.
Unudub keçmişi üzə durmurlar.
Atanın səhvlərin üzə vurmurlar.
Qulluğunda durub baxırlar ona.
Ömür günü çatır atanın sona.

* * * * * * *

Həyatda bəzən də olur əksinə.
İnsanlar dəyişir çönür tərsinə
Valdeynin qədrini biləsən gərək.
Qəlbindən kinini siləsən gərək.
Onları anlayıb duymaq yaxşıdır
Verdiyi öyüdə uymaq  yaxşıdır.
Valdeynin zülümün görəsən gərək
Övladlıq borcunu verəsən gərək.

* * * * * * *

İndi sizə deyim yetim qalandan.
Uşaqkən anasın ölüm alandan.
Gözü anasını axtaran bala.
Kim istər balalar anasız qala.
Ananın sevgisi nədir dadmayıb.
Arzusu puç olub ona çatmayıb.
Əlində ananın şəklin daşıyır.
Bir uşaq anasız necə yaşayır.?
Atası evlənib alır yoldaşı.
Ayrı uşaqları qatırlar başı.
Yetim uşaq gizli göz yaşı tökür.
Ananın yoxluğu qəlbini sökür.
Qaynayıb, qarışmır aralı gəzir.
Ögeylik görəndə  həyatdan bezir.
Atanın xəbəri olmur işləyir.

İşindən, gücündən qalmır işləyir.
Ögey ana susar ata olanda.
Sonraya saxlayar hirsə dolanda.
Çubuqla yandırıb uşağı döyər.
Ərinin yanında özünü öyər.
Ögeyi doğmadan seçib danlayar.
Özünün balasın yaxşı anlayar.
Uşaq qorxusundan ataya deməz.
Bir yemək yeyəndə  beş dəfə yeməz.
Çəkilib xəlvətə şəkilə baxar.
Uşağın əhvalı ürəyi yaxar.
Hərdən anasını ziyarət edər.
Ah çəkib ağlayar ürəyi gedər.
Bir zaman ayılar hava qaralıb.
Qorxudan rəngi də solub saralıb.
Qaçıb evə çatar, analıq döyər.
O gec gəldiyinə danışar, söyər.
Yazıq uşaq qalar qansıza möhtac.
Çarəsi ölümdü, ayrı yox əlac.
Düşünər anaya qovuşar belə.
Taleyin hökmüylə barışar belə.
Zəhərlə qəsd edər cavan canına.
Əbədi ananın gedər yanına.
Uşağı o həddə çatdıran insan.

Allahdan qorxmayır  fani dünyada.
Onu zəlil qoyar baxmaz fəryada.
Yerdə süründürər almaz canını.
İt kimi uladar  alar ağlını.
Çalışın yetimin ahın almayın.
Ona qarşı kobud, laqeyd olmayın.
Şad etsəz həyatda kövrək qəlbləri.
Bir anlıq fikirdən çıxar dərdləri.
Valideyn, övladın söhbəti çoxdu.
Səhv yolu tutanın axırı yoxdu.
Mən yazan obrazlar çoxun azıdı.
İnsanın  bəxtində qismət, yazıdı.
Bircə Allah bilir doğrunu, düzü.
Tanıyır insanda həqiqi üzü.
Yaşayır ömrünü hərə bir cürə.
Kimi bədbəxt kim də xoşbəxt gün görə...
Ailəni yaşadan münasibətdi.
Günelin  yazdığı doğru söhbətdi.

# ALLAHIN İZNİYLƏ YARANAN BƏNDƏ

Mən bu həyatın hər üzün görmüşəm.
Qəmgin İnsanların dərdin bilmişəm.
Çoxunu keçirir həyat sınaqdan.
İzləmişəm məndə baxıb qıraqdan.
Nə zaman almışam qələm əlimə
Hörmət qoymuşam doğma elimə
Bəzən istəmişəm olanı yazım.
Yadımda yaxşıtək qalanı yazım.
Gördüyüm dərd evi çöküb üstümə.
Qalmışam altında durub qəstimə.
Çatan olmayıbdı heç vaxt dadıma.
Çarəsiz qaldığım düşür yadıma.
Təsəlli vermişəm özüm-özümə.
O zaman dediyim doğru sözümə.
Haqsız olan kəsi pisləmişəm mən.
Doğru yerin tapsın istəmişəm mən.
Allahın izniylə yaranan bəndə
Günah etməməli bilmişəm məndə.
Görür hər edilən günahı Allah.
Pis insana verir cəzanı Vallah
Qoy eşitsin günah edənlər bunu.
Bilsin əsl həyatın budur qanunu.!!

## YALAN DÜNYADI

Məni məndən alan dünyadı.
Əzəl başdan yalan dünyadı.
Altı, üstü talan dünyadı.
Bizi dərdə salan dünyadı.
Yükü ağır palan dünyadı.
İnsan ömrün çalan dünyadı.
Ana saçın yolan dünyadı.
Hey boşalıb dolan dünyadı.
Özü qoca olan dünyadı.
Əvvəl, axır solan dünyadı.
Yola salıb, qalan dünyadı.
yalan dünyadı.

## ŞƏRƏFLİ ÖMÜR YOLU

Ömür yolu - Bu söz, bu anlayış çox dərin bir məna kəsb edir. Bəzən biz insanlar düşünürük ki, yaşamaq, yaratmaq həyat üçün zəruri olan tələbatları ödəmək bizim ömür yolumuzdur. Həyatda ömür boyu buna can atırıq. Ac-susuz qalmırıq. Müəyyən çətinliklərlə ya yaxşı, ya da pis dolanaraq bir ömür yolu gedirik. O yolu bəzən sağlam: yüksək əhval-ruhiyyə ilə, bəzən də xəstəliklərlə mübarizə apara-apara irəliləyirik. Ötüb keçən zaman, dəyişən dövran biz insanları püxtələşdirir. Görüb-götürürük, baxıb öyrənirik. Dövran dəyişdikcə biz də dəyişirik. Amma çox təəssüf ki, biz insanların içərisində müxtəlif xarakterli insanlar daha çoxdur. Bu xarakterlər hislərə bölünür. Sevgi və paxıllıq hissi: Bu iki anlayış insanların mənfi və müsbət cəhətlərini göstərir. Bu həyat: Yaşayan insanların ömür yolunda mübarizəsidir. Qarşımıza məqsəd qoyaq və o məqsədə çatmaq üçün çalışaq. Daha da yaxşısını edərik deyə özünüzü toplayaq və inanaq. Allah heç bir əziyyəti yerdə qoymaz.

Sevgi hissi isə ülvi hissdir. Hər insan içindəki öz sevgisini müxtəlif cürə ifadə edir. Ata, ana, övlad, həyat yoldaşı, bacı, qardaş və s. Bütün bunlarla yanaşı Vətənini, peşəsini də sevməlidir. Sevgi ilə görülən işin bəhrəsi çox gözəl olar. Nəyisə başdangetdi edərsənsə o iş yarımçıq qalar və bəyənilməz. Ona görə də istənilən bir iş olsun fərqi yoxdur. Sevgi ilə görülsün, o işə can qoyulsun. Ömür yolu sevgi ilə gözəldir. Əgər qəlbimizdə ata-ana sevgisi, övlad sevgisi, ən əsas da Vətən, torpaq sevgisi varsa, deməkbizdə insanlıq var. Həssas duyğular var. Deməli biz sevdiklərimizlə həyata bağlanıb yaşayırıq. Amma məlum məsələdir ki, əksəriyyət insanlarda həyat sevgisi daha çoxdur. Öz canını hər şeydən çox istəmək həyat sevgisidi. Bəzən söz olaraq belə deyirlər:

"Valideynlərim olmasa yaşaya bilmərəm". Və yaxud da "Vətən üçün canımdan keçərəm". Amma bu sözü deyənlərin əksəriyyəti kimə və nəyəsə görə canını fəda etmir... Vətən üçün canından keçənə boş yerə "şəhid " adı verilmir. Bu adı qazanana Allah deyər ki, " Ey canını Vətən uğrunda fəda edən kəs, sənə mən şəhidəm". Məhz elə (şahid) sözündən də "şəhid" adı yaranıb. Hər kəsə nəsib olmur bu ad.... Bu adı vətən uğrunda vuruşaraq, döyüşərək canı bahasına qazanmaq lazımdır. Şəhid adını daşıyan, igidlik göstərib vətəni, xalqı yolunda əbədiyyətə qovuşan minlərlə şəhidlərimiz var. Mən onların vətənpərvər ruhu qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Amma canlarını çox istəyənlər sözdə desələr də həyatda tam fərqlidilər. Lap sevdikləri olsa belə, yenə də öz həyatlarını düşünürlər. Heç fikirləşmirlər ki, həyat gəldi gedərdi. Yaşadığın ömür yolunu gərək elə yaşayasan ki, sənin haqqında danışanda" şərəfli bir ömür yolu keçib desinlər". Bu gün varıq, sabah yoxuq. Gəlin biz də müvəqqəti qonaq olduğumuz bu dünyada ömrümüzü elə yaşayaq ki, həyatın mənfi yox, müsbət keyfiyyətlərini özümüzdə əks etdirək. Çünki həyat bizə o dünyaya aparmağa heç nə verməyəcək. Lakin xatırlanacaq, yad olunacaq qədər xatir-hörmət sahibi olsaq və bunu qazanmağa çalışsaq nə xoş bizə....

....

## MÜNDƏRICAT

**Ön söz.........................................................................4**
**Ömür yolum...............................................................7**
**Ona deyin....................................................................8**
**Şəhidin var, Azərbaycan! .......................................10**
**Gördüm.......................................................................11**
**Sevmərəm ki!..............................................................13**
Ay **qardaş!...................................................................14**
**Niyə insaf yoxmuş, allah?....................................16**
**Sənsən.........................................................................17**
**Bizə əziz doğmadır...................................................18**
**Həzin-həzin əsən külək............................................20**
**Ay zalımın balası........................................................22**
**Göstər...........................................................................24**
**Ay gözəlim!.................................................................25**
**Nəyi pisdi?...................................................................26**
**Küsmə!.........................................................................27**
**Nəyə lazım?.................................................................28**
**Ölməzsən ki!................................................................29**
**İnanmayın hər sevgiyə...............................................30**
**Qaranlıq düşəndə.......................................................32**
**Ol yaşama səbəbim...................................................35**
**Nəsihət.........................................................................37**
**Yeni ili qarşılayaq......................................................39**
**Haqqın özü allah yolu................................................41**
**Ehtiyacım yoxdur sizə...............................................43**
**Dönər............................................................................45**
**İstəmirəm!...................................................................46**
**Sonu yox.......................................................................48**

**Mən diz çökəcəm.......................................................49**
**Mübariz oldun...........................................................51**
**Azərbaycan.................................................................53**
**Yeni məktəb................................................................54**
**Çal sazı.......................................................................56**
**Yazıq dünya, qınamıram mən səni......... ................57**
**Özünə yaxşı bax sözünü demə................. ..............58**
**Qızım..........................................................................60**
**Məmura baş əyib qulu soyuruq................ ..............62**
**Deyiləm......................................................................63**
**Xoşbəxt, bədbəxt adamlar........................................64**
**Olma............................................................................65**
**Qadınlar......................................................................66**
**Gözləri.........................................................................67**
**Xəstəlik inadla mənlə yarışır...................................68**
**Bilməz..........................................................................69**
**Dünya boşdu, yalandı................................................70**
**Ay Vətən oğlu!............................................................71**
**Pay versən mənə!........................................................72**
**Şəhid qardaşım...........................................................73**
**Şəhid məzarı üstə ağlayan ana..................................75**
**Hərdən.........................................................................77**
**Çoxlari.........................................................................78**
**Allahı yadına salmayan insan...................................79**
**Kaş yenə qayıdıb uşaq olaydıq.................................81**
**Biz...............................................................................83**
**Allah yetirsin..............................................................84**
**Dəyişir........................................................................85**
**Anam...........................................................................86**

**Bilməzsən.........................................................................87**
**Bibi..................................................................................88**
**Gərək...............................................................................90**
**Bir yolu varsa...................................................................91**
**Gözəldi............................................................................92**
**Tapmıram.........................................................................93**
**Nakam sevgi.....................................................................94**
**Didərgin düşüb.................................................................95**
**Olacaqdı...........................................................................96**
**Böyük yaradan..................................................................97**
**Mən..................................................................................98**
**Kənddə...........................................................................100**
**Qalmadı..........................................................................102**
**Qeyrət axtarma dostun satanda....................................103**
**Bilmirsən........................................................................104**
**Heç bilmirəm niyə sevdim mən səni.............................106**
**Etibar etdiyim qalmayıb artıq.......................................108**
**Adam tapmiram..............................................................109**
**Töhmətin var həyatda.....................................................110**
**Bilmirəm.........................................................................111**
**Pisliyin yarası sağala bilməz...........................................112**
**Sanıram...........................................................................113**
**Getməyə..........................................................................114**
**Bilməz.............................................................................115**
**Yazdım............................................................................116**
**Vətənə dönməyin artıq vaxtıdı.......................................118**
**Nəfəsim ol......................................................................119**
**Ağam, ya hüseyn!...........................................................120**
**Tək istəyim insanlar sağlam yaşasın ömrü..................121**

**Qalib gəlsin insanlıq...............................................122**
**Ola....................................................................................124**
**Sanmasın.........................................................................125**
**Necə yazım axı, xoş gündən?..................................126**
**Yarım qalan ömrü yenidən yaşadan can..............129**
**Valideyn övlad münasibətləri.................................139**
**Allahın izniylə yaranan bəndə................................151**
**Yalan dünyadı...........................................................152**
**Mündəricat................................................................155**

Günel Vaqifqızı



***ÖMÜR YOLUM***



*ƏLIYEVA GÜNEL VAQIF* qızı
(Günel Vaqifqızı)

11 iyun 1988-ci ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Gödəklər kəndində anadan olmuşdur. 1994-cü ildə R.Əliyev adına Gödəklər kənd tam orta məktəbin 1-ci sinifinə getmiş, 7 ci sinifdən etibarən təhsilini rayon mərkəzində davam etdirmişdir. 2005-ci ildə isə Akademik M. Mehdizadə adına Beyləqan şəhər 3 saylı tam orta məktəbi bitirmişdir. 2005-2009-cu illər Azərbaycan Müəllimlər İnstitutunda təhsilini davam etmişdir. 2007-ci ildən 2010-cu ilə qədər Beyləqan rayonu Uşaq Yaradıcılıq Mərkəzində Dərnək rəhbəri kimi fəaliyyət göstərmişdir. 2010-cü ildən etibarən Beyləqan rayon Gödəklər kənd tam orta məktəbində ibtidai sinif müəllimi kimi fəaliyyət göstərir. 2014-cü ildə Gödəklər kənd bələdiyyəsinə ümumxalq səsverməsi yolu ilə üzv seçilmişdir.
2019-cu il. Beyləqan rayon üzrə şeir müsabiqəsinin qalibi.
(ASKEF) "Avrasya Sanat Kültür Edebiyat Bilim Federasyonu" (Türk dünyasının Sənət, mədəniyyət, ədəbiyyat və elm federasiyasının) Beyləqan rayon üzrə təmsilçisidir.
Türk Dünyası Şeirləri Antologiyasının "Türk Dünyasi Şiir Seçkisi-5-6, 2019" kitabında şeirləri çap olunmuşdur.

Kitab müəllifin oxucularla ilk görüşüdür.

Ailəlidir, iki övladı var.

İKSAD Publishing House

978-605-7695-69-7